

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Heydər Əliyev Fondu: 20 ilin reallıqları



3

SƏS

№ 082 (7007)

10 may 2024-cü il.
Qiymətі 60 qəpik

## Xatirəsi xalqımızın qəlbində əbədi yaşayanlar



2

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Həzi Aslanovun məzarını ziyarət ediblər

# Əbədiyaşar Lider!

Bu gün Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümüdür



### "Azərbaycana 100 ölkədən 55 mindən yuxarı qonaq gələcəyi gözlənilir"




11

### "Heydər Əliyev Fondu Azərbaycan vətəndaşı üçün ümid yerinə çevrilib"

HEYDƏR ƏLİYEV FONDU

11

### Böyük Heydər Əliyev və Qalib Xalq!



8

### Erməni kilsəsi - müharibə və qan hərisləri...



13

### Xoşbəxt olmayan evlilik seçimdir, yoxsa imtahan?



14

# Xatirəsi xalqımızın qəlbində əbədi yaşayanlar

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Həzi Aslanovun məzarını ziyarət ediblər

**İkinci Dünya müharibəsinin ağrı-acısını yaşayan Azərbaycanın bu gün 79 il bundan əvvəl yaşanılan Qələbədə böyük payı var. İllərdir ki, alman faşizmi üzərindəki tarixi Qələbə keçmiş sovet respublikaları ilə yanaşı, ölkəmizdə də bayram əhval-ruhiyyəsi ilə qeyd olunur. Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş azərbaycanlıların qəhrəmanlığı, şücaəti yaddaşlarda həmişə yaşayır. Minlərlə vətən oğlunun İkinci Dünya müharibəsindəki qəhrəmanlığı müxtəlif xalqlar tərəfindən öyrənilir və xalqımıza məxsus ərənlik nümunəyə çevrilib.**

Müharibə zamanı göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşının Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi əlbəttə ki, bu savaşda Azərbaycan oğullarının rolunun böyük və əvəzsiz olduğunu göstərməklə yanaşı, igidliyindən də söz açır. Müharibə başlanandan keçən qısa müddət ərzində, Azərbaycan ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edildi. Bu Qələbənin qazanılmasında çox böyük payı olan xalqımız 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə qəhrəmanlıqla həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən artıq əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.



Mayın 9-da faşizm üzərində tarixi Qələbə münasibətlə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstəsi qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıblar. Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib.



Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz edilib. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçuşlar həyata keçirən 7 min hərbi təyyarənin yanacaq təchizatında da mühüm rol oynadı. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərərək, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəallıq göstərdi. 1941-1945-ci illərin alovunu Azərbaycanın hər bir vətəndaşı yaşıyıb. Müharibə illərində Azərbaycanın bütün iqtisadiyyatı da müharibə tələblərinə uyğun qurulmuşdu. Fəhlə və qulluqçular üçün iş günü 11-12 saata qaldırılmışdı. Məzuniyyətlər ləğv olunmuşdu. Ərzaq, gündəlik tələbat və çox işlənən sənaye məhsullarının satışı üzrə kartoçka sistemi tətbiq edilmişdi. Orduya səfərbər edilmiş işçilərin yerinə qadınlar və yeniyetmələr cəlb olunmuşdu.

Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdi. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və digər şəhərlərin düşməndən azad edilməsində rəşadət göstərmiş oldular. Həmyerlilərimiz Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak etdilər. Xatırladaq ki, Berlinə ilk dəfə daxil olan hərbi hissələr içərisində 416-cı diviziyası da var idi. Bu müharibədə şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri hər zaman ehtiramla anılıb.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarına xüsusi diqqət və qayğı göstərib, onları ”xalqımızın qızıl fondu” adlandırıb. Müstəqilliyin ilk illərində veteranlara ədalətsiz münasibət heç kimin yadından çıxmayıb, AXC-Müsavat iqtidarı dövründə, hətta 9 May Qələbə Gününü də ləğv etmək fikrində idilər. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışından sonra bu ədalətsiz münasibət aradan götürüldü, ədalət bərpa olundu və veteranlara layiq olduqları hörmət göstərilməyə başlandı. ”Tarix bu gün də bilməlidir ki, İkinci Dünya müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur”, - deyən Dahi Öndər Heydər Əliyev müharibə veteranlarını ”Xalqımızın Qızıl Fondu” adlandırırdı. Ölkəmizdə müharibə veteranlarına qayğının və onların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ulu Öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır. ”Biz ümumi Qələbəmiz uğrunda canlarından keçənlərin müqəddəs xatirəsini ehtiramla yad edirik”, - deyən dövlət başçısı Azərbaycanda veteranların diqqət və qayğı ilə əhatə olunduğunu bildirib.

Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həllini daim diqqət mərkəzində saxlayır, 9 May - Qələbə bayramı ərəfəsində onlara maddi yardımlar göstərilir. 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı xüsusi qayğının növbəti təzahürüdür. Prezident İlham Əliyevin Sərəncamına əsasən, İkinci Dünya müharibəsində Qələbənin 79-cu ildönümü ilə əlaqədar birdəfəlik yardım ödənilir. Sərəncama əsasən, İkinci Dünya müharibəsində Qələbənin 79-cu ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçılarına 2000 manat birdəfəlik maddi yardım ödənilib. Həmçinin İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1000 manat məbləğində birdəfəlik maddi yardım verilib.

Sərəncamın ümumilikdə 3 minə yaxın şəxsə şamil olunub. Onlardan 30-u İkinci Dünya müharibəsi iştirakçılarıdır. Birdəfəlik maddi yardımların verilməsi üçün Sərəncamla Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3 milyon manat vəsait ayrılıb.

Ölkəmizdə müharibə veteranlarına qayğının və onların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. İkinci Dünya müharibəsində od-alov püskürən cəbhələrdə ölümlə üz-üzə dayanan, qəhrəmanlıq göstərən insanlara və müharibə veteranlarına da Azərbaycanda böyük diqqət və qayğı göstərilir. Prezident İlham Əliyevin imzaladığı məlum Sərəncam Azərbaycanın dövlət siyasətinin insan amilinə söykənməsi və humanist mahiyyət kəsb etməsinin növbəti təzahürüdür.

Bütün bunlar bir daha sübut edir ki, müharibə veteranlarına hərtərəfli diqqət və qayğı Azərbaycanda dövlət siyasətinin başlıca prioritetlərindən biridir.

Azərbaycan xalqı artıq dördüncü ildir ki, 1941-1945-ci illər müharibəsində faşizm üzərində Qələbəni 44 günlük Vətən müharibəsi nəticəsində əldə olunmuş böyük Zəfərin doğurduğu sevinc hissi ilə birgə ikiqat qürurla qeyd edir. Xalqımızın 30 il uğrunda mübarizə apardığı ədalət nəhayət Zəfər çaldı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə və 1941-1945-ci illər müharibəsində canlarından keçmiş bütün oğul və qızlarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Heydər Əliyev Fondu: 20 ilin reallıqları

## Prezident İlham Əliyev: "Ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, Cənubi Qafqazda Heydər Əliyev Fondudur"

**İctimai-siyasi, mədəni həyatda öz sözünü demək, əməli fəaliyyətilə böyük nüfuza sahib olmaq, örnəyə çevrilmək məsuliyyət və zəhmətin bəhrəsidir. Vətənpərvərlik, vətənə bağlılıq, şəxsiyyəti milləti üçün böyük amallara xidmət etməyə sövq edir. Azərbaycanın Birinci Xanımı, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın ictimai-siyasi, mədəni həyatında müstəsna rola malik olması onun vətənə bağlılığından irəli gəlir. Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən Heydər Əliyev Fondunun genişmiqyaslı fəaliyyəti onu nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda belə əks-səda doğurub.**



Azərbaycan tarixinə müstəqil dövlət qurucusu kimi daxil olmuş Ulu Ödər Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmış Heydər Əliyev Fondu müxtəlif layihələr həyata keçirərək, cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Heydər Əliyev ideyalarını dəstəkləyərək, ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə fəaliyyətini davam etdirir.





### ”FONDUN ƏSAS MƏQSƏDİ, VƏZİFƏSİ İNSANLARA KÖMƏK GÖSTƏRMƏK, AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİ DÜNYADA TƏBLİĞ ETMƏK, TƏHSİL, SƏHİYYƏ, MƏDƏNİYYƏT, İNCƏSƏNƏT, ELM SAHƏLƏRİNƏ TÖHFƏ VERMƏKDİR”

Hər bir addımı böyük rəğbətlə qarşılanan Fondun humanitar missiyada fəaliyyət proqramlarının həyata keçirilməsi vətəndaşların qayğı və problemlərinin həllində müstəsnadır. Həyata keçirilən bütün layihələr vətəndaşların hərtərəfli qayğı ilə əhatələnməsi, sosial rifahının yüksəldilməsi məqsədini daşıyır. Uşaq bağçalarının, orta məktəblərin, səhiyyə müəssisələrinin təmir və inşası, eləcə də, əqli, fiziki cəhətdən zəif, qüsurlu olan uşaqlara, yaşlı və kimsəsiz insanlara maddi və mənəvi dayaq olması, şəkərli diabet, böyrək çatışmazlığından əziyyət çəkənlərə pulsuz və yüksək səviyyədə yardım və kömək göstərilməsi Heydər Əliyev Fondunun qısa bir zaman məsafəsində gördüyü işlərin uğuru olaraq qəbul edilir. Xeyriyyəçilik və humanizm kimi dəyərlərdən yoğrulmuş fəaliyyət insanlığa, bəşəriyyətə xidmət etmək kimi ali bir dəyərə söykənir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin açılış mərasimində çıxışı zamanı söylədiyi fikirləri bir daha xatırlatmaq yerinə düşər: ”Bu gün isə müstəqil Azərbaycanda xeyriyyəçilik ənənələri, onun qoyduğu xeyriyyəçilik ənənələri davam edir, geniş vüsət almışdır. Bildirməliyəm ki, bu sahədə ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, Cənubi Qafqazda Heydər Əliyev Fondudur. Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində Fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir. Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır. Məhz Fondun fəaliyyəti nəticəsində Azərbaycan daha çox tanınır və məhz bu amil bizə İkinci Qarabağ müharibəsi dövründə kömək göstərdi. Çünki Azərbaycan xalqı yaxşı bilir ki, o vaxt erməni lobbisi və onun havadarları Azərbaycan haqqında olmazın yalanlar uydurub media məkanına atmışlar. Ancaq uzun illər ərzində Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə fəaliyyəti və Azərbaycanın müasir, mütərəqqi dövlət kimi tanıdılması bu təbliğatı alt-üst etmişdir. Bu gün Heydər Əliyev Fondu qarşısında yeni vəzifələr dayanır. Ənənəvi fəaliyyətlə yanaşı, bu gün Fond azad edilmiş torpaqlarda geniş fəaliyyətə başlamışdır. Fondun təşəbbüsü ilə azad edilmiş torpaqlarda hazırda dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası prosesinə start verilib.”

Heydər Əliyev Fondunun prezidenti Azərbaycanın Birinci xanımı, Mehriban Əliyeva hər zaman xalqın yanında olan onun problem və qayğıları ilə maraqlanan və onların çözülməsinə çalışaraq həqiqətən də insanların ümid, pənah yeridir. Ulu Öndər Heydər Əliyev ideyalarını davam etdirən Fondun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında əks-səda doğuraraq, birmənalı qəbul edilir. Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyev haqqında belə deyir: ”O, Vətəninə, müstəqil, çiçəklənən, qüdrətli Azərbaycanda xoşbəxt görmək istədiyi xalqına olan sonsuz sevgisini hər şeydən üstün tuturdu. Bu gün Heydər Əliyev bizimlə olmasa da, onun ideyaları yaşayır, niyyətləri həyata keçirilir. Ən başlıcası onun müqəddəs arzusu reallaşıb”.

Müasir dünyamızın çağırışlarına cavab verən layihələri ilə milyonlarla insanın sevgisini qazanan Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın fəaliyyəti özünün vurğuladığı kimi, sarsılmaz həqiqətlərə söykənir: ”Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir”. Mehriban xanım Əliyeva valideynlərindən əxz etdiyi dəyərləri hər zaman üstün tutaraq, onların öyrətdikləri həqiqətə və mənəviyyata can atmağı özünün həyat məqsədinə çevirib: ”Onlar öz varlığı ilə ləyaqət və şərəf hissinin hər şeydən üstün olduğunu aşıladılar. Öyrətdilər ki, alicənablıq və dürüstlük, mənəviyyat və şəfqət, xeyirxah əməllər, inam və məhəbbət - həqiqi xoşbəxtliyə və harmoniyaya aparan yoldur”. İnsanlığa aparan yol ailədən əxz olundu.

### SAĞLAM CƏMİYYƏT VƏ SAĞLAM NƏSİL

Azərbaycanda uşaqların sağlam və gümrah böyümələri, onların Vətənə layiqli övlad kimi yetişməsi, mükəmməl təhsil almaları dövlətin daim diqqət mərkəzində saxladığı prioritet məsələlərdəndir. Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva uşaqların xoşbəxt gələcəyi üçün bütün imkanlardan istifadə edir, bu sahəni daim diqqət mərkəzində saxlayır. Heydər Əliyev Fondunun bu sahədə gördüyü işləri isə sadalamaqla qurtaran deyil.

Valideyn himayəsindən məhrum olunmuş uşaqların rifah halının yaxşılaşdırılması, hüquqlarının qorunması, cəmiyyətdə hərtərəfli inkişafı, onlara yüksək səviyyədə səhiyyə xidmətlərinin göstərilməsi Heydər Əliyev Fondunun diqqətdə saxladığı ən vacib məsələlərdəndir. Fondun prezidentinin təşəbbüsü ilə hazırlanmış ”Uşaq evləri və internat məktəblərinin inkişafı Proqramı” çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldıqları onlarla internat məktəbi və uşaq evləri əsaslı təmir edilmiş, ən müasir avadanlıqlarla təchiz olunmuşdur.

Ardı Səh. 4







# Heydər Əliyev Fondu: 20 ilin reallıqları

## Prezident İlham Əliyev: "Ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, Cənubi Qafqazda Heydər Əliyev Fondudur"

Əvvəli Səh. 3

Hətta, kimsəsiz uşaqlara ev şəraitinə uyğun mühit yaradılmışdır. Gənc nəslin təhsili və sağlamlığının qorunması Heydər Əliyev Fondunun fəaliyyətinin prioritet istiqamətlərindən biri olduğundan Fond ölkədə həyata keçirilən təhsil və səhiyyə islahatlarında xüsusi fəallıq nümayiş etdirir. Heydər Əliyev Fondunun bu sahədə həyata keçirdiyi tədbirlər isə birbaşa genefondun qorunmasına, bu sahədə mövcud problemlərin əsaslı həllinə yönəlmişdir. Məktəbəqədər hazırlıq müəssisələrinin, uşaq bağçalarının müasir standartlar səviyyəsində qurulması, onların maddi-texniki bazasının gücləndirilməsi Heydər Əliyev Fondunun diqqət mərkəzindədir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində ölkəmizdə uşaq evi və internat məktəbi əsaslı təmir olunub və bu müəssisələrdə yaşayan uşaqların problemlərini daim diqqətdə saxlanılıb.

"Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı" kimi layihələri onun humanizm prinsiplərindən qaynaqlanır. Bütün bu reallıqlar Mehriban Əliyevanın bir qadın, ana, ictimai xadim kimi fəaliyyətində reallığa çevrilib.



### "AZƏRBAYCAN - TOLERANTLIĞIN ÜNVANI"

Milli-mənəvi dəyərlərin qorunması və dini ziyarətgahların yenidən qurulması prosesinə fəal surətdə qoşulan Heydər Əliyev Fondunun ölkəmizdə həyata keçirdiyi "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkədə bir neçə dini ocağın təmiri və yenidən qurulması həyata keçirilmişdir. Fondun təşəbbüsü ilə Gəncədə Comərd Qəssab və Cavad xan türbələri yüksək səviyyədə bərpa edilmişdir. Bu sırada paytaxtın Buzovna qəsəbəsində "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində əsaslı surətdə yenidən qurulan Cümə məscidi də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Qəbələdə isə yeni məscid inşa olunmuşdur.

Azərbaycanda bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayıblar. Bu gün də belədir. Müasir dünyamızda çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir. Müasir dövrümüzdə Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Fondun layihələrindən olan "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətli işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.

Fəaliyyəti dövründə əldə etdiyi nailiyyətlər Fondun qeyri-hökumət təşkilatı olaraq həyata keçirdiyi layihələri ilə təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir. Gördüyü işlərində təvazökarlıq göstərir. Mehriban Əliyeva həqiqətən, gördüyü işlərlə kimliyini, böyüklüyünü bu dünyada gördüyü işlərlə reallaşdırır. Həyat və vəzifə missiyası bir etalon olaraq cəmiyyətə təqdim olunur. Bu təqdimatda Azərbaycan və onun inkişafı dayanır. Mehriban xanım Əliyeva ismінə böyük bir məhəbbət və ehtiram hissi yaratmışdır. Öz varlığı ilə məmləkətinə şərəf gətirən Mehriban xanım Əliyeva Azərbaycan qadını, Azərbaycan İnsanı obrazını yaradıb. Azərbaycan haqqında olan təsəvvür, insan haqqında olan təsəvvür Onun layihələri əsasında tamam fərqli bir şəkildə meydana çıxıb. Bütün dünyaya müstəqil dövlətdə yaşayan qadın obrazının lazımi şəkildə təqdiminə nail olub.

Qloballaşma prosesində Azərbaycan mədəniyyətinə xüsusi diqqət ayrılaraq, Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlər də diqqətdən kənarda deyil. Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin inkişafında, dünyada təbliğində əvəzsiz xidmətləri vardır. Azərbaycanın Birinci Xanımı ölkəmizdə müntəzəm olaraq keçirilən müxtəlif beynəlxalq mədəniyyət tədbirlərinin və festivallarının təşkilində mühüm rol oynayır. Beynəlxalq muğam festivalı və muğam ifaçılarının müsabiqəsi, M.Rastropoviç adına, eləcə də D.Şostakoviçin və Bülbülün yubileylərinə həsr edilmiş beynəlxalq festivallar, Qəbələ Musiqi Festivalı, Aşıqların Beynəlxalq Festivalı kimi tədbirlər, məhz Mehriban Əliyevanın yaxından dəstəyi ilə həyata keçirilib. Bakıda Beynəlxalq Muğam Teatrının, Müasir İncəsənət Muzeyinin binaları tikilib, açıq səma altında "Qala" arxeoloji-etnoqrafik muzey kompleksi yaradılıb.



Təbiətin gözəl bir çağında hər tərəfin yaşıl, al rəngə boyandığı vaxtda Heydər Əliyev Fondunun təşkilatçılığı ilə yenidən Şuşada Cıdır düzündə təşkil olunan "Xarıbülbül" musiqi festivalı öz möhtəşəmliyi ilə dünyaya səs saldı.

### AZƏRBAYCAN TARİXİNDƏ İLK DƏFƏ OLARAQ BİRİNCİ XANIM İNSTİTUTU

Azərbaycan Prezidenti İlham Əliyevin ən yaxın silahdaşı olaraq Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan tarixində ilk dəfə olaraq Birinci xanım institutunu formalaşdırdı. Azərbaycan Prezidenti İlham Əliyevin Mehriban Əliyeva haqqında söylədiyi fikirləri vurğulamaq yerinə düşər: "Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial bir insandır, eyni zamanda çox xeyirxah bir insandır və təsadüfi deyil ki, Azərbaycan xalqı ona çox böyük rəğbətlə, sevgi ilə yanaşır".

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin 27 sentyabrında başlanan 44 günlük Vətən müharibəsində biz Onun həqiqətən də Cənab Prezidentin silahdaşı olduğunun bir daha şahidinə çevrildik. Müharibədən sonrakı mərhələdə də Mehriban xanım Əliyevanın dövlət başçısı ilə birlikdə işğaldan azad olunan ərazilərə səfər etmişdir və bu gün də belədir. İşğaldan azad olunan ərazilərdəki erməni vandallıqları onu dəhşətə gətirmiş və sonradan öz paylaşımlarında bunu ictimaiyyətin diqqətinə çatdırmışdır.

### "ÖLKƏMİZİN VƏ XALQIMIZIN MARAQLARINI HƏR ŞEYDƏN ÜSTÜN TUTACAĞAM"

Həqiqətən də səmimi hisslər, səmimi münasibət, səmimi görüşlər Mehriban xanım Əliyevanı insanlara daha da yaxınlaşdırır. Xalqın ən çətin və şad günündə onlarla fikirlərini paylaşan Mehriban Əliyevanın "Sizin Mehriban" ifadəsi onunla isti münasibətin daha da sıx olmasına səbəb olub. İnsanlar onu doğması tək qəbul edir və ən çətin anlarında həqiqətən də ümid qapılarına üz tuturlar."Vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır", - deyən Mehriban xanım Əliyeva gələcək fəaliyyətini, məhz bu prinsiplər əsasında quracağına əminlik ifadə etmişdir: "Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam". Həqiqətən də belə oldu.

Mehriban xanım bütün fəaliyyəti dövründə xalqın maraqlarını əsas götürərək, ictimai, sosial layihələri ilə öz ətrafında böyük imic formalaşdırıb. 44 gün davam edən müharibədə Müzəffər Azərbaycan Ordusunun təcavüzkar Ermənistanı məğlub edərək, işğaldan azad etdiyi Vətən torpaqlarında bu gün həyata keçirilən tikinti-bərpa işlərində Mehriban xanım Əliyevanın da həyata keçidiyi layihələr töhfəsini verməkdədir. Böyük Qayıdışın möhtəşəm olacağına əminik və bu işdə Mehriban Əliyevanın payı müstəsna olacaqdır. Möhtəşəm "Xarı Bülbül" festivalına rəhbərlik etməsi bütün dünyaya səs saldı. 30 ildən sonra "Qarabağ şikəstəsi" Cıdır düzündə səsləndirildi. Artıq bu işlərin ilkin addımlarını və reallaşan layihələri görürük. Heydər Əliyev Fondu məscidlərin təmirini öz üzərinə götürüb. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan M.P. Vaqifin büstü öz əvvəlki yerinə qaytarılıb. Görülən işlər kifayət qədərdir. Damarlarında azərbaycanlı qanı qövr edən Böyük Ziyalının işığında Azərbaycanın hər bir bölgəsində əməyini, layihələrini görürük.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Nikol, yenə səhv edirsən

## Paşinyan Kremldən istədiyini ala bilmədi, üstəlik tənqidlərə tuş gəldi

***Kremldə Avrasiya İqtisadi İttifaqının (Aİİ) Ali Şurasının iclası keçirilib, iclasda ümumi diqqət Rusiya prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyana yönəlib. Vərdişindən kənarda qala bilməyən Belarus prezidenti Aleksandr Lukaşenko, eləcə də Moskvaya gələn Kuba prezidenti Migel Mario Diaz-Kanel Bermudes də diqqət mərkəzində olub. Kremldə danışıqların başlanğıcı ssenari ilə müqayisədə iki saatdan çox dəyişdi və təbii ki, necə deyərlər, sola yox, sağa. Dövlət başçıları bir gün əvvəl Böyük Kreml Sarayının əzəmətli pilləkənləri ilə - şəxsən Vladimir Putinlə qalxdılar. Nikol Paşinyan paltosunu çiyninə ataraq pilləkənləri birinci qalxıb. Düzdür, deyəsən, o, dinc həyatda bədən tərbiyəsinə laqeyd yanaşır: uzun pilləkənin zirvəsinə yaxınlaşanda Nikol Paşinyan daha heç yerə tələsmək istəmirdi.***

Belarus prezidenti Aleksandr Lukaşenko isə liftdən faktiki istifadə edib ki, bu da başa düşüləndir. Qazaxıstan prezidenti Qasım-Jomart Tokayev də bunu diqqətdən kənarda qoymayıb.

Görüş cənab Putinin and içməsindən bir gün əvvəl və inauqurasiya nitqi ilə çıxış etdiyi Müqəddəs Endryu zalında baş tutub. Geniş tərkibdə keçirilən görüşə gələn müşahidəçilər, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Kuba Prezidenti Migel Dias-Kanel də qatılıblar, onların Moskvaya bu səfəri əsl şok effekti yaradıb. Kubalı qonaq ömründə heç vaxt may ayında qar yağdığını görməyib. Ancaq burada o, sadəcə Kremlə gedərkən maşının pəncərəsini açmaq məcburiyyətində qalıb - və dərhal havanın indi +33°C olduğu Havanada burada gördüklərindən danışacağını düşünüb.

Kubalı jurnalistlər də Moskvadakı qar yağışını üzün müddət izləyiblər, dərhal beşinci mərtəbədəki bufetdə isti çay içiblər. Dar tərkibdə keçirilən görüş qısa olub. Tezliklə xəbər gəlib ki, Ermənistan 2024-cü ildə KTMT-yə töhfə verməkdən imtina edib. Ancaq hələ də Aİİ-də deyil. Yəni bu sammitdə də Nikol Paşinyanı izləmək bir az maraqlı olub. Genişləndirilmiş iclasda hər bir lider çıxış etməli idi. Nikol Paşinyanın sədr olmasına baxmayaraq, Vladimir Putin söz alıb. Onun çıxışından məlum olub ki, on il ərzində Aİİ o qədər iş görüb ki, onsuz da başqa heç kim etməzdi, həm də daha az.





Nikol Paşinyan çıxış edərək nümayiş etdirmək istəyib ki, Ermənistan Aİİ-nin üzvü olmaqda davam etmək niyyətindədir və hətta bu təşkilatın maliyyələşdirilməsində iştirak edə bilər. O, yalnız ümumi enerji bazarına doğru yavaş hərəkətdən (görünür, Ermənistanın Aİİ-yə qoşulmasının əsas səbəbidir) və Nikol Paşinyana hərdən sonsuz görünən razılaşmalardan (və bu, təbii ki, Rusiya siyasətinin uzaqgörənliyindən) narazıdır. Belarus prezidenti Aleksandr Lukaşenko çıxışının əhəmiyyətli hissəsini aparıcı Qərb ölkələrinin "ölkələrimizin inkişafını cilovlamağa" çalışdığı, lakin bu cəhdlərin uğursuzluğa düçar olduğu hekayəsinə həsr edib. O, deyəsən unudub ki, indi Vladimir Putinlə ikitərəfli görüşdə deyil, Qazaxıstan, Özbəkistan və Qırğızıstan başçılarının onunla bir masa arxasında oturduğu görüşdə iştirak edir. Amma Aleksandr Lukaşenko həmkarlarını arxayın edib. O bildirib ki, İranla, eləcə də müvəqqəti ticarət sazişinin imzalanmaq üzrə olduğu Monqolustanla əməkdaşlıq davamlı şəkildə inkişaf edir.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev həmkarlarına qüsursuz logistika və rəqəmsal sənədlərin qarşılıqlı tanınmasının zəruriliyindən danışıb. Qırğızıstan Prezidenti Sadır Japarov bu dəfə Ermənistanın baş nazirini "Nikolay" adlandırıb, lakin sonra "Nikol" olaraq düzəldib, Ermənistanın baş naziri isə sanki qisas almaq üçün Qırğızıstan prezidentinin atasının adını həddən artıq oxunmaz şəkildə tələffüz edib. İclasda çıxış edən Kuba prezidenti isə qəribə görünürdü. Onun buradakı varlığını "vafli tortu üzərindəki albalı" hesab ediblər.

Hamı, o cümlədən Özbəkistan prezidenti Şavkat Mirziyoyev danışanda liderlər yekun sənədləri imzalamağa başlayıblar. İnteqrasiya naziri Sergey Qlazyev Avrasiya İqtisadi Komissiyasının biznes və makroiqtisadiyyat sahəsinə daxil olub. O əvvəlcə Vladimir Putinə yaxınlaşıb və möhkəm əl sıxıb, görünür, sammitdəki səmərəli fəaliyyətinə görə ona təşəkkür edib. Və bir müddət Rusiya prezidentini nəyəsə inandırıb. Daha sonra Sergey Qlazyev Kuba prezidentinə, daha sonra Özbəkistan prezidentinə yaxınlaşıb və onunla eyni şeyi edib. O, iclasın qalan iştirakçılarına yaxınlaşmayıb, çünki onların hər biri ilə xeyli əvvəl söhbət edib.

Putin hamını şam yeməyinə dəvət edib və əlavə edib ki, indi onlara ertəsi gün Qızıl Meydandakı paradda iştirak etmək üçün gəlmiş Tacikistan və Türkmənistan prezidentləri də qoşulacaqlar. Bu, artıq bir növ çox qeyri-rəsmi MDB sammiti idi. Əgər Azərbaycan Prezidenti İlham Əliyev də burada iştirak etsəydi.

Artıq gecə saatlarında Nikol Paşinyanla ayrı-ayrı söhbətlər planlaşdırılıb. Həmişə olduğu kimi, axşam yeməyindən sonra bütün əyləncələr desertə qalıb.

Rusiya Prezidenti Vladimir Putin iclasa "İqtisadi göstəricilər öz sözünü deyir". "On il ərzində Avrasiya İttifaqı ölkələrinin ümumi ÜDM-i mövcud hesablamalara görə 1,6 trilyon dollardan 2,5 trilyon dollara yüksəlib". Eyni zamanda, o, bu il də müsbət makroiqtisadi dinamikanın davam etdiyini vurğulayıb. Bununla belə, günün əsas intriqası Paşinyanla Rusiya prezidenti Putinlə görüşü olub. Ermənistan lideri həmin gün böyük mətbuat konfransı verdiyi üçün Rusiya prezidentinin andiçmə mərasiminə qatılmayıb. Buna Rusiyada bəhanə kimi baxarxlar. Xüsusilə də jurnalistlərlə danışan Paşinyan Rusiyaya qarşı bir sıra şikayətlərini dilə gətirib.

Məsələn, Paşinyan Rusiya televiziya kanallarının respublika ərazisində yayımına yenidən baxacağı hədəsi çaşqınlıq yaradıb. "İmzalanmış sazişlərə əsasən, biz Rusiya kanallarından Ermənistana və onun maraqlarına hörmət etməyi xahiş edirik. Ölkələrimiz arasındakı dostluq münasibətlərinə əsaslanaraq, biz dəfələrlə xahiş etməyə, sonra bir neçə dəfə tələb etməyə məcbur olmuşuq. Əgər yeddinci dəfədən sonra bizim tələbimizə məhəl qoyulmasa, o zaman bütün bu kanallar bağlanmalı və onların Ermənistanda yayımı dayandırılmalıdır", - deyə hökumət başçısı vurğulayıb.

Bundan əlavə, Paşinyan Azərbaycan, Ermənistan və Rusiya başçılarının Qarabağ uğrunda ikinci müharibəyə son qoyan 9 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatını etibarsız adlandırıb. O, bunu sənədin Bakı ilə Naxçıvan arasında nəqliyyat kommunikasiyalarına (Zəngəzur dəhlizi adlanan) nəzarətin Rusiya sərhədçiləri tərəfindən həyata keçirilməli olduğunu qeyd edən doqquzuncu bəndinin müzakirəsi kontekstində xatırladıb.

Moskva bildirib ki, Vladimir Putinlə Paşinyan arasında danışıqların əsas mövzusu Cənubi Qafqazda sülh, sabitlik və təhlükəsizlik məsələləri ilə bağlıdır. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovun dediyi kimi, bu danışıqlar hər iki tərəfə lazım idi.

Xatırladaq ki, aprelin 22-də Vladimir Putin Azərbaycan prezidenti İlham Əliyevlə görüşüb. Bundan əvvəl Rusiya sülhməramlılarının Qarabağdan çıxarılmasına başlanılmışdı. Sonra Əliyev bildirib ki, Bakı və Moskvanın regional təhlükəsizlik məsələlərini necə həll etməsi xoşuma gəlir. "Ölkələrimizin qarşılıqlı fəaliyyətindən çox şey asılıdır", - deyə Azərbaycan lideri vurğulayıb.

Erməni politoloq Arşaluys Mqdesyan hesab edir ki, indi Moskva ilə İrəvan arasında siyasi münasibətlər SSRİ-nin dağılmasından bəri ən aşağı həddə çatıb. "Ermənistan hakimiyyəti hesab edir ki, onların rusiyalı həmkarları hərbi-siyasi sahədə müttəfiqlik öhdəliklərini yerinə yetirmirlər və bütün anti-Rusiya günahlarında ittihamlarla cavab verirlər. Mahiyyət etibarı ilə Moskvanın mövqeyi İrəvana Qərbin inkişaf kursunu əsaslandırmaq imkanı verir və İrəvanın davranışından Moskva Cənubi Qafqazdakı hərəkətlərinə haqq qazandırmaq üçün istifadə edir. Geosiyasi vəziyyət dəyişməyincə tərəflərin bu yoldan dönə bilməyəcəyi ehtimalı azdır", - ekspert hesab edir.

Rusiya Beynəlxalq Tədqiqatlar İnstitutunun aparıcı elmi işçisi Nikolay Silayev isə əksinə hesab edir ki, Ermənistan hakimiyyəti Aİİ-dən hansı iqtisadi faydaları itirə biləcəyini başa düşməklə yanaşı, Rusiya ilə münasibətlərini pisləşdirməyə şüurlu şəkildə çalışır. Öz növbəsində Moskva İrəvanla müttəfiqliyini qoruyub saxlamağa çalışır. "Ermənistan hakimiyyətinin siyasəti izahata meydan oxuyur. Aydındır ki, İrəvan Moskvanın Azərbaycanın Qarabağdakı hərəkətlərinə və onun Ermənistanın bilavasitə ərazisinə güclü təsirinə reaksiyasından məyusdur. Lakin təhlükəsizlik sahəsində əlavə tərəfdaşlar axtarmaq bir şeydir, eyni zamanda Moskva ilə münasibətləri korlamaq başqa şeydir", - Silayev bildirib.

Strateji Tədqiqatlar və Təşəbbüslər üzrə Analitik Mərkəzin (STTAM) rəhbəri Hayk Xalatyan da hesab edir ki, Ermənistan hakimiyyəti Rusiya ilə müttəfiqlik münasibətlərinə yenidən baxılması kursu götürüb. Paşinyan hökumətinin nöqteyi-nəzərindən Rusiya ilə müttəfiqlik özünü doğrultmadı. Onlar bir tərəfdən Türkiyə və Azərbaycanla nəyin bahasına olursa-olsun sülh kursunu, digər tərəfdən Qərblə yaxınlaşma kursunu müəyyənləşdirdilər. Eyni zamanda, Paşinyan ehtiyat edir ki, Rusiya ilə münasibətlərin kəskin pozulması, xüsusən də Aİİ-dən çıxması daxili siyasi problemlərlə dolu olan ölkə üçün ciddi sosial-iqtisadi problemlərə gətirib çıxara bilər. Buna görə də o, boşluğu daha idarəolunan etmək və hakimiyyəti üçün mümkün riskləri minimuma endirmək niyyətindədir.

**V.VƏLİYEV**

# Azərbaycan beynəlxalq aləmdə yüksək inam bəslənilən dövlətə çevrilib

Azərbaycan dünyanın əksər ölkələri tərəfindən etibarlı tərəfdaş, yüksək inam bəslənilən dövləti olaraq tanınır və qəbul edilir. Bunun da səbəbi ölkə başçısı Cənab İlham Əliyevin düşünülmüş, müdrik siyasət aparmasıdır. Ölkəmiz dünyanın aparıcı dövlətlərindən biri olaraq bir sıra beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətlərinə malikdir. Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, Avropa Şurasının, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin, GUAM-ın üzvüdür. Eyni zamanda, Azərbaycan NATO və Avropa Birliyi kimi qurumlarla əməkdaşlıq edir. Azərbaycan dövlətinin ciddi, əsaslı siyasəti, ölkədaxili iqtisadi inkişafı ilə bu nüfuzlu təşkilatlarında ən etibarlı, yüksək inam bəslənilən dövlət imici qazanıb. Bu da dünyanın demokratik, aparıcı dövlətləri ilə yeni əməkdaşlıq münasibətləri yaradıb.

2011-ci il oktyabrın 24-də Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi dünyada sülhün və təhlükəsizliyin təmin olunmasına mühüm töhfələrin verilməsi ilə yadda qalmışdır. Beynəlxalq təşkilatlarla, dünya dövlətləri ilə səmərəli əməkdaşlıq əlaqələrinin qurulması və əlaqələrin dövlətlərin maraqlarına uyğun inkişaf etdirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasətinin ana xəttini təşkil edir. Bu baxımdan, Azərbaycan beynəlxalq təşkilatlarda daim aktiv fəaliyyət göstərməsi ilə fərqlənmiş və milli maraqlarımızın təmin olunmasına yönəlmiş siyasət həyata keçirmişdir. Ölkəmizin beynəlxalq təşkilatlarda nüfuzunun yüksək olmasının nəticəsidir ki, Azərbaycan 2019-cu ildən etibarən Qoşulmama Hərəkatına sədrlik edib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Qoşulmama Hərəkatı dünyanın inkişafına mühüm töhfələr verən qlobal əhəmiyyətli tədbirlər keçirilib.



## Beynəlxalq aləm Azərbaycanın haqq işini, ədalətli mövqeyini müdafiə etdi

Koronavirus pandemiyasının qarşısının alınması və dövlətlərin bu istiqamətdə əməkdaşlığının gücləndirilməsi üçün Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və Sədrliyi ilə Qoşulmama Hərəkatının videokonfrans formatında toplantısı keçirilib. Eyni zamanda, dünya ölkələrinin pandemiya ilə mübarizədə fəaliyyətlərinin artırılması məqsədi ilə bu il Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının konfransı keçirilib. Ümumiyyətlə, Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizə çərçivəsində dünyada ən fəal və sərt qabaqlayıcı tədbirlər görən dövlətlərdəndir. Pandemiyaya qarşı ölkədaxili tədbirlərlə yanaşı, Azərbaycan dövləti dünyanın 30-a yaxın dövlətinə maliyyə yardımları göstərib. Ümumdünya Səhiyyə Təşkilatına isə Azərbaycan dövləti 10 milyon ABŞ dolları həcmində maliyyə yardımı göstərib. Məhz bu kimi xeyirxah və humanist addımlarına görə, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru dəfələrlə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür məktubları ünvanlayıb. Bütün bunlar ölkəmizə çox mühüm diplomatik uğurlar gətirməklə yanaşı, beynəlxalq müstəvidə nüfuzunun və müsbət yöndə imicinin artmasına xüsusi imkanlar yaradır. Təbii ki, səbəbsiz deyil ki, Azərbaycan ordusunun 2020-ci il sentyabrın 27-dən erməni terrorçularına qarşı Qarabağda uğurlu hərbi əməliyyatlar apardığı zaman İslam Konfransı Təşkilatının, Qoşulmama Hərəkatının, Türk Şurasının, BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin irəli sürdükləri separatçı layihəyə qeyri-daimi üzvlərin sərt münasibət bildirmələri və ayrı-ayrı ölkələrin Azərbaycanın haqq işini, ədalətli mövqeyini müdafiə etmələri ölkəmizin dünyada böyük nüfuza malik olması ilə bağlıdır. Dövlətimizin uğurlu xarici diplomatiyasının prioritetlərindən biri də türk dünyasının qarşılıqlı əlaqələrinin möhkəmlənməsidir. Azərbaycan Prezidenti İlham Əliyev bütün sahələrdə olduğu kimi, türk dünyası ilə əlaqələrin inkişafına xüsusi önəm verir. Türkiyə-Azərbaycan qardaşlıq əlaqələri, strateji müttəfiqliyi, beynəlxalq təşkilatlarda, diaspor fəaliyyətlərində eyni maraqlardan çıxış edilmələri dünya xalqları və dövlətləri üçün həsəd aparılan, paxıllıq hissi yaradan məsələyə çevrilib. Sentyabrın 27-dən erməni işğalı altında olan ərazilərimizin azad edilməsi üçün aparılan uğurlu təmizləmə əməliyyatlarında Türkiyə hakimiyyəti və xalqı Azərbaycan dövlətinə, ordusuna ən yüksək səviyyədə mənəvi, siyasi, diplomatik dəstək göstərdi. Bununla yanaşı, Ermənistan üzərində parlaq qələbə münasibəti ilə 2020-ci il dekabrın 10-da Bakıda keçirilən Qələbə Paradında Türkiyənin hökumət və dövlət rəhbərləri, o cümlədən Prezident Rəcəb Tayyib Ərdoğan iştirak etdi. Türkiyə Silahlı Qüvvələrinin mehmetciklərinin Qələbə Paradında sıra keçidində iştirak etmələri bütün türk dünyasına qürurverici anlar yaşatdı. Bu nümunəvi dəstək Ulu Öndər Heydər Əliyevin Türkiyə - Azərbaycan qardaşlığı barədə dediyi "bir millət iki dövlət", Mustafa Kamal Atatürkün "Azərbaycan xalqının sevinci sevincimiz, kədəri kədərimizdir" tarixi fikirlərinin ruhuna tam uyğundur. Məhz buna görə də, türk dünyasının beynəlxalq aləmdə özünəməxsus yer tutması uğrunda müasir dövrün türk liderləri olaraq Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan böyük xidmət göstərməkdədirlər. Hər iki ölkənin liderləri təkcə Türk Şurasının Zirvə Görüşlərində, Türk PA-da TÜRKSOY-da deyil, bütün sahələrdə əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli addımlar atır, qərarlar verirlər. İki dost, qardaş ölkə arasında iqtisadi-ticarət əlaqələri də hər il artmaqdadır.

## Azərbaycan beynəlxalq təşkilatlarla geniş əməkdaşlıq əlaqələrinə malikdir

Mövcud faktlara istinadən demək olar ki, bu gün türkdilli dövlətlər arasında Azərbaycan Türkiyə iqtisadiyyatına ən çox sərmayə qoyan ölkələrdən biridir. Azərbaycanın Türkiyə iqtisadiyyatına sərmayəsi 15 milyard, Türkiyənin Azərbaycan iqtisadiyyatına qoyulan sərmayəsi isə 12 milyard dollar təşkil edir. Azərbaycan dövləti BMT-nin UNESKO, UNİCEF və digər xüsusiləşdirilmiş təşkilatları ilə genişmiqyaslı əməkdaşlıq əlaqələrinə malikdir. Bu əlaqələr çərçivəsində Azərbaycan-BMT birgə layihələri icra edilib və bu layihələrin həyata keçirilməsi demokratik institutlarının inkişafına mühüm töhfələr verib. Azərbaycan ATƏT-lə də geniş əməkdaşlıq əlaqələrinə malikdir. Bu əlaqələr daha çox seçkilərin müşahidəsi, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun xətti ilə həyata keçirilən layihələr və digər məsələləridir. Azərbaycan Respublikası 2001-ci ildən üzv olduğu Avropa Şurası ilə əməkdaşlığı da yüksək səviyyədə, hər iki tərəfin maraqlarına uyğun həyata keçirilir.

Təəssüflər olsun ki, AŞPA-dakı bəzi ölkələrin qaranlıq dairələrinin qərəzli mövqeyi səbəbindən Azərbaycan bu qurumdakı fəaliyyətini qısa müddətə dayandırıb. Lakin digər haqsız yanaşmalar və mövqelər kimi ölkəmizə qarşı olan bu qərəzli münasibətdə aradan qaldırılacaq. Nəzərə almaq lazımdır ki, 2024-cü il yanvarına qədər dəfələrlə AŞPA-nın Azərbaycanda toplantıları keçirilib və toplantılarda Avropa ailəsi üçün önəmli olan məsələlər müzakirə olunaraq müvafiq qərarlar qəbul edilib. Azərbaycan hərbi təşkilat olan NATO ilə əlaqələri də arzuolunan səviyyədədir. Ölkəmizin bu qurumun "Sülh naminə Tərəfdaşlıq" proqramına qoşulması ilə, Avro-Atlantika Tərəfdaşlıq Şurasında mühüm mövqeyə malik olub. Ölkəmizin dünyada baş verən bütün siyasi - ictimai proseslərə təsir etmək imkanlarına malik olan Avropa İttifaqı ilə münasibətlər, əməkdaşlıq əlaqələri ən yüksək səviyyədə inkişaf etməkdədir. Bu mötəbər qurumla Azərbaycan arasında imzalanmış "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"ndə tərəflər arasında siyasi və ticarət sahəsində əməkdaşlıq, Azərbaycanın qanunvericiliyinin Avropanın hüquq sisteminə uyğunlaşdırılması məsələləri öz əksini tapmışdır. Avropa İttifaqı ilə əməkdaşlığa Azərbaycanın xüsusi önəm verdiyini bildirən Azərbaycan Prezidenti İlham Əliyevin qeyd edib ki, Azərbaycan Avropa İttifaqı ilə münasibətlərin inkişafında maraqlıdır və bunu dövlət siyasətinin prioriteti hesab edir: "Bu gün Azərbaycan Asiya ilə Avropa arasında yerləşən, regionumuzda dərin kökləri, Avropa ilə güclü əlaqəsi olan, Avropa dəyərlərini paylaşan bir ölkədir. Biz Avropa təsisatlarından aldığımız dəstəyə görə minnətdarıq. Əminəm ki, qarşıdakı illərdə Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlıq uğurla davam edəcək və tezliklə bizim qarşımızda yeni imkanlar açacaq yeni saziş imzalayacağıq". Birmənalı şəkildə demək olar ki, Azərbaycan Avropa İttifaqı üçün əhəmiyyətli tərəfdaşdır. Bunu qurumun rəhbərləri də çıxışlarında vurğulayıblar və Azərbaycanın Avropanın enerji təchizatında önəmli rol oynadığını qeyd ediblər.

Uzunluğu 3500 kilometr olan "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşması ilə Xəzər regionundan qaz təchizatının Avropa bazarlarına birləşdirməsinə nail olunur. Eyni zamanda, Azərbaycan qurumun 23 ölkəsi ilə ikiqat vergitutmanın aradan qaldırılması, 18 ölkəsi ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması, 14 üzv ölkə ilə isə Hökumətlərarası Komissiyanın yaradılması haqqında saziş imzalanıb. Bütün bu kimi uğurlar, Azərbaycanın beynəlxalq təşkilatlarla, ayrı-ayrı ölkələrlə iki və çoxtərəfli əməkdaşlıq müqavilələri imzalaması Azərbaycanın güclü və hesablaşılan dövlət olduğunu bir daha təsdiqləmiş olur. Uğurlarımız və qələbələrimiz isə hələ öndədir. Çünki Ulu Öndərimizi Heydər Əliyevin əsasını qoyduğu və ölkə Prezidenti İlham Əliyevin çox böyük müdrikliklə həyata keçirdiyi siyasət Azərbaycan dövlətinə və xalqına xoşbəxt, firavan həyat və yaşayış vəd edir.

**İLHAM ƏLİYEV**

# "Azərbaycan deyəndə ağlıma birinci Heydər Əliyev gəlir"

**10 may - bütün türk dünyasının iftixarı, dünya şöhrətli müdrik siyasi şəxsiyyət və görkəmli dövlət xadimi, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günüdür. Ümummilli lider Heydər Əliyev hələ ötən əsrin 70-80-ci illərində Azərbaycanda dinamik iqtisadi inkişafını, sosial rifah halının yüksəldilməsini, Azərbaycanın gələcək müstəqilliyi üçün potensialın yaradılmasını təmin edib. 1993-cü ilin iyun ayında xalqın çağırışı ilə respublikamıza rəhbərliyə qayıdan Ulu öndər Heydər Əliyev ölkəmizi dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən, vətəndaş qarşıdurmasından xilas edərək, dərin siyasi, iqtisadi və sosial böhranın qarşısının alınmasına nail olub.**



Ulu öndər Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə yüksək səviyyədə davam və inkişaf etdirilir. Bunun nəticəsi olaraq Azərbaycan dinamik inkişaf yolunda inamla irəliləyən, vətəndaş rifahının təminatı istiqamətində mühüm addımlar atan, dünya birliyində nüfuzlu mövqeyə malik olan bir ölkədir.

SİA şəhər sakinləri arasında "Ümummilli Lider Heydər Əliyev necə insan idi?, Onunla bağlı təəssüratlarınız necədir?, Onu necə xatırlayırsınız?" kimi suallarla müraciət edərək sorğu keçirib.

**Şəhər sakini Təranə Məcidova:** "Heydər Əliyev bizim üçün dahi, əvəzolunmaz şəxsiyyətdir. Onun Azərbaycan və bizim



üçün ən böyük işi, mənim fikrimcə, İlham Əliyev kimi oğul yetişdirməsidir. İlham Əliyev də Ulu Öndərin uğurlu yolunu davam etdirir. Bu dahi şəxsiyyət haqqında nə qədər danışsaq, azdır. Onun gördüyü işləri nə qədər saysaq, bitməz".

**Şəhər sakini Emil Abutalıbov:** "Heydər Əliyevi çox yaxşı xatırlayıram. Mən məktəbli olanda bizim Prezidentimiz idi. Bu dahi şəx-



siyyət Azərbaycan Respublikası və Azərbaycan xalqı üçün çox böyük işlər görüb. Mənim yadıma gəlir ki, Sovet hakimiyyəti dağılandan sonra biz necə yaşayırdıq. Heydər Əliyev hakimiyyətə gələndən sonra müstəqilliyimizi hiss etdik. O vaxtları çox gözəl xatırlayıram. Çox mehriban, gözəl yaşayırdıq. İndi də bizim cənab Prezident İlham Əliyev Ulu Öndərin yolunu davam etdirir. Heydər Əliyev çox güclü siyasətçi idi. Bəlkə də, indi Onun kimi siyasətçilər çox azdır".

**Şəhər sakini Hüquq Salmanov:** "1969-cu ilin iyul ayının 14-dən, ondan da əvvəl bu insanın Azərbaycan xalqı üçün əvəzsiz xidmətləri danılmazdır. İlk əvvəl 10 minlərlə azərbaycanlı Moskva, Sankt-Peterburq, Kiyev və digər şəhərlərin ali məktəblərində təhsil alıb bizim kadr bazasını mükəmməl-



ləşdirdilər. Heydər Əliyevin vaxtında beynəlmiləlçilik norma kimi qəbul olundu. Artıq ermənilər baş qaldıra bilmədilər. Heydər Əliyev həm tarixçi, filosof, həm dövlət xadimi kimi böyük xidmətlər göstərib. 2001-ci ilin 23 fevralında onun Milli Məclisdəki nitqi var. Təfsilatı ilə camaata başa saldı ki, Qarabağ problemi ümumxalq problemidir. Bu, təkcə Prezidentin, Milli Məclisin, Elmlər Akademiyasının problemi deyil. Gərək xalq birləşib bu problemi həll etsin. Yollarını da məhz orada göstərdi. Azərbaycanın Qarabağ problemini həll etmək üçün Amerika, Rusiya, Fransa üçlüyü vacib idi. Amerika ilə Rusiya arasında qarşılıqlı anlaşma olması mümkünsüzdür.

Heydər Əliyevin bu addımı mühüm strateji addım hesab oluna bilər. Heydər Əliyev sadə ailədən olduğu üçün həmişə xalqa arxalanıb. Dünyada nə qədər məşhur olsa da, o, öz köklərini unutmayıb. Onun kolxozçuların yanında, pambıq, üzüm yığanlar, gəmiqayıranlar, neftçilərlə minlərlə şəkli var. O, çəkməsini geyinib tarlaya düşürdü. Tarlaları sulayırdılar, su dizə qədər çıxardı. Heydər Əliyev unikal adam idi.

O, mənim həyatımda çox dərin izlər buraxıb. Mənə deyirdilər ki, biz milli komanda yaradırıq, heyif ki, sən bizim millətdən deyilsən. Heydər Əliyev buna baxmadı, harada savadlı kadr var idisə, hamısını ətrafına yığdı. Mən də fürsətdən istifadə edib müraciət etdim. Sonralar da siyasət şöbəsinin rəhbəri oldum. Onun Zərifə xanım Əliyeva ilə münasibətləri, uşaqlarına qayğısı əfsanəyə çevrilib. Onun üçün hamımız bir ailəyik".

**Şəhər sakini Mələk Əlimuradova:** "Azərbaycan gənci kimi Onun çox güclü,



yaxşı lider olduğunu deyə bilərəm. Onun əvəzsiz siyasətçi olduğunu eşitmişəm. Heydər Əliyev Azərbaycan üçün əvəzolunmaz liderdir. O, Azərbaycanın inkişafı üçün çox böyük işlər görüb. Onun siyasəti indi də davam edir".

**Şəhər sakini Heybət Babayev:** "Çox nostalji hisslər yaşadım. Mən Heydər Əliyevlə qonşu olmuşam. Onun işdən qayıtdığı vaxtları xatırlayıram. Heydər Əliyev böyük



rəhbər, çox savadlı insan olub. Allah ona rəhmət eləsin. Onun Azərbaycan üçün gördüyü işlərdən danışanda deyə bilərəm ki, Azərbaycanın böyük qüvvəsi Heydər Əliyevlə bağlı olub. Məktəbli yaşlarda elə də anlamırsan, böyüyəndən sonra Onun necə böyük şəxsiyyət, siyasətçi olduğunu dərk edirsən. Onun hər sahədən anlayışı var idi. Mən musiqiçiyəm. Musiqidən danışanda musiqidən, ədəbiyyatdan danışanda ədəbiyyatdan deyirdi. Mənim xatirimdə o insan çox böyük təəssürat yaradıb. Atamdan eşidirdim, o həmişə Heydər Əliyevi tərifləyərdi. Sonra da özüm anlayandan sonra gördüm ki, həqiqətən də, böyük şəxsiyyətdir. Azərbaycanı, xalqını Sovet məkanında yox, dünyada tanıdıb. Onun yolunu indi oğlu İlham Əliyev davam etdirir. Dövlət başçımıza minnətdar olmalıyıq".

**Şəhər sakini Lalə Mehdili:** "Heydər Əliyevin Azərbaycan üçün çox böyük işlər gördüyünü düşünürəm. Ümumiyyətlə, Azərbaycan deyəndə birinci ağlıma Azərbaycanın tə-



məlini qoyan insan kimi Heydər Əliyev gəlir. Xarakterinə görə mülayim insan idi, insanları, vətənini sevən insan olduğunu düşünürdüm. Ona görə də əlindən gələni edirdi, başına gələ biləcək hər şeyi göz önünə almışdı. Yəni başına pis iş gəlməyini belə Vətəni üçün gözə almışdı. Onun dövlətə əmanət etdiyi oğlu da onun yolundan gedir, onun istəklərini yerinə yetirir. Yaxşı ki, var imiş. Yaxşı insan idi. Onu realda görməsəm də, görmək istəyərdim. Hər dəfə videolarına baxanda görürəm ki, Vətən haqqında danışanda gözləri dolur, ağlayır. Bu mənə çox təsir edir. Allah rəhmət eləsin, ruhu şad olsun. Vətənimiz üçün çox böyük işlər görüb".

**Şəhər sakini Fuad Əlixanov:** "Mən Naxçıvanda yaşayanda Heydər Əliyevi orada



görmüşdüm. Onun hakimiyyətə gəlməsi Azərbaycanı bəlalardan xilas etdi. Heydər Əliyev böyük rəhbər, böyük siyasətçi, gözəl də insan olub. Çox güclü lider və çox sadə insan idi. Allah rəhmət eləsin".

**Şəhər sakini Hicran Səlimova:** "Ulu Öndər daim mənim ürəyimdədir. Şəxsən hesab edirəm ki, Onun kimi əvəzolunmaz adam yoxdur, təbii ki, Onun oğlu cənab İlham Əliyevdən başqa. İlham Əliyev də Onun tələbəsi, Onun yetişdirməsidir. Ulu Öndərin yeri və



xatirəsi mənim üçün tam başqadır. O, əvəzolunmaz bir insandır, dünya üzrə güclü siyasətçidir. Onun elədiklərini təkrarlamaq mümkün deyil. Heydər Əliyev fenomendir. Belə insanlar 100 ildə bir dəfə dünyaya gəlir".

**Şəhər sakini Bəhruz Ələkbərov:** "Heydər Əliyev deyəndə Ulu Öndərimiz yada düşür. Bizi müharibədən xilas edən böyük şəxs kimi xatırlanır. Bütün ömrümüzü ona borclu-



yuq. Mənim fikrimcə, Heydər Əliyev dünyada ən güclü siyasətçi idi. Xalqla səmimi idi, kaş yenə sağ olaydı, kaş yenə xalqla səmimi şəkildə ünsiyyət qurardı".

***Söylü Ağazadə***

SORĞU

# Böyük Heydər Əliyev və Qalib Xalq!



**Zaman bizi Ulu Öndər Heydər Əliyevdən fiziki olaraq nə qədər uzaqlaşdırırsa, sanki böyük Lider mənəvi olaraq bir o qədər də bizə yaxınlaşır. Onun böyüklüyü, əzəməti zaman keçdikcə daha dəqiq görünür. Azərbaycan xalqının Böyük oğlu, milli-dövlətçilik və Azərbaycançılıq məfkurəsinin banisi Heydər Əliyev haqqında fikir bildirmək, Onun haqqında düşüncələri bölüşmək çətin və məsuliyyətli bir işdir. Belə ki, ömrünü siyasi fəaliyyətə, dövlət maraqlarına, xalqına həsr edən böyük şəxsiyyət Heydər Əliyev dünyanın nüfuzlu siyasətçiləri fonunda daim zirvələrdə yer alıb. Məhz bu baxımdan, Heydər Əliyev deyərkən, ilk olaraq gözümüz önündə bir xarizmatik Lider, Böyük Azərbaycanlı canlanır. Və bu gün Onun böyüklüyü, əbədiliyi özünü daha qabarıq, daha geniş fonda əks etdirməkdədir.**

Bu gün Azərbaycan xalqının xoşbəxtlik meyarlarından biri də Heydər Əliyev kimi Liderə, xilaskara malik olmaq amili ilə ölçülməkdədir. Belə bir meyar isə hər xalqa, hər millətə nəsib olmur. Və əgər bu gün xalqımızın Ümummilli Lideri, Ulu Öndəri Heydər Əliyev barədə fikirlərimizi bölüşürüksə, ilk növbədə Onun Böyük Azərbaycanlı olduğunu məxsusi olaraq vurğulamalıyıq. Əbəs deyil ki, Heydər Əliyev deyərkən Azərbaycan, Azərbaycan deyərkən isə Heydər Əliyev gerçəkliyi parlaq günəştək aydın səmalarımızdan üzərimizə nur yağdırır - O, yaşayır, yaşadılır və öz əbədiliyi ilə, atalıq nuru ilə gələcək yollarımıza işıq saçır. Bu yolu müəyyən etmək üçün, bu gələcəyi təmin etmək üçün Heydər Əliyev bütün mənalı həyatı boyunca sözün əsl mənasında çarpışdı, mübarizə apardı, dünyaya qətiyyətin, fədakarlığın nə olduğunu sübuta yetirdi. Bizlər - Vətən sevdalısı olaraq Heydər Əliyevin bizlərə miras qoyduğu Azərbaycançılığı, milli-mənəviyyatın qorunub-saxlanılması ideologiyasını, dövlətçilik ənənəsini yaşatmaqdayıq.







*Bəhruz Quliyev,*
*"SƏS" qəzetinin baş redaktoru,*

## Azərbaycançılıq məfkurəsi...

Fakt budur ki, Ulu Öndərimizin uzaqgörənliyi, xalqına və dövlətinə verdiyi sonsuz dəyəri nəticəsində təlatümlər içində boğulan, parçalanma təhlükəsi ilə üz-üzə qalan Azərbaycanımızda möhkəm xalq-iqtidar birliyi formalaşdırılmağa başlandı və qüdrətli, güclü dövlətin təməli qoyuldu. Bu tarixi gerçəklik özünü ən yüksək səviyyədə tərənnüm etdirməkdədir. Ötən əsrin 90-cı illərinin əvvəllərində - ağır dövrlərdə məhv olmaq, müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalan Azərbaycan xalqı yeganə çıxış yolunu Heydər Əliyevdə gördü və əminliklə öz Liderinə etimad göstərdi. İlk növbədə, bu sonsuz etimad hər bir azərbaycanlının gələcəyə ümidini itirməməsinə, daha dəqiq desək, inamlı baxışında öz təşəkkülünü tapmış oldu. Bu təşəkkül və təcəssüm hələ ilkin kövrək addımların başlanğıcı idi, qarşıda isə həmin addımları möhkəmləndirmək məsuliyyəti dayanırdı. Ancaq ən əsası, Heydər Əliyev faktoru Azərbaycançılıq məfkurəsinin təməlini qoymuşdu, dövlətimizin, xalqımızın xilasının da kökündə həmin reallıq ali məcəssəmə mənzərəsində xarakterizə edilə bilər. Beləliklə, Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq məfkurəsindəki təməl prinsiplərindən biri də milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində qurduğu siyasi konsepsiyası oldu.

Yazımda kiçik olsa belə, mühüm bir ştrixə toxunaraq qeyd etmək istərdim ki, əgər Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi, ideyası əsaslı şəkildə dərk olunmasaydı, bu gün biz Zəfər və Qələbə əzmimizdən danışa bilməzdik. Qarabağımızın düşmən işğalından azad edilməsi ilə nəticələnən 44 günlük Zəfər yolumuzun da təməlində məhz bu tarixi məfkurə, ideyaya sadiqlik, layiqli varislik dayanır.

Bu gün cənab İlham Əliyev bütün çıxışlarında bu məfkurənin qorunub-saxlanılması, gələcək nəsillərə ötürülməsi ilə bağlı fikirlərini ifadə edir, qərarlı addımlar atır, bunu millətin, dövlətin, xalqın iradəsinə xas olduğunu vurğulayır.

Heç kimə sirr deyil ki, hər bir xalqın özünəməxsus milli-ideoloji baxışı var və Ulu Öndər Heydər Əliyev bu mühüm məqamı bilavasitə dövlətçilik, Azərbaycançılıq siyasəti ilə sintezləşdirərək, möhkəm təməlləri qoymuş oldu. O, yaxşı bilirdi ki, başa çatdıra bilməyəcəyi işlərini Onun layiqli varisi davam etdirəcək, başa çatdıracaq və yeni məqsədlərə doğru irəliləyəcək. Bu baxımdan, Heydər Əliyev həyatının bütün incəliklərinə real baxış prizmasından yanaşırdı və bilirdi ki, qarşıda görüləcək çox çətin işlər var və bu işlərin realizə olunmasını yalnız İlham Əliyev həyata keçirmək gücündə, qüdrətindədir. Bu təməl dövlətimizin ideoloji prinsipidir və bu prinsip ölkəmizin daha da qüdrətli, güclü olması maraqlarına dayanır. Tarix də bu gerçəkliyi sübut etməkdədir. Əbəs deyil ki, müxtəlif siyasi-ictimai hadisələr baş verərkən, Heydər Əliyevin bir çağırışı ilə yüzminlərlə insan Onun səsinə-səs verir, Liderinin ətrafında birləşirdi. Bax, bu gerçəklik möhkəm əsaslara söykənən dövlətçilik, Azərbaycançılıq ruhunun, ideologiyasının bariz təcəssümü olaraq şanlı tariximizə fəxarət hissi ilə yazılıb.

## Güclü Sovet Azərbaycanı dövrü

1969-cu ilədək Azərbaycan SSRİ-nin tərkibində yalnız xammal mənbəyi kimi çıxış edir, bütün sahə və istiqamətlər üzrə ən geridə qalmış ölkələrin başında gəlirdi. Respublikamızın inkişafı üçün əhəmiyyətli resurs və potensial mövcud olsa da, onlardan səmərəli surətdə istifadə edilməməsi tənəzzül meyllərinin əsasında dayanan başlıca faktor idi. Amma Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olması ölkəmizin Sovet dövrü tarixində dönüş nöqtəsi oldu. 1969-cu ilin iyulu güclü Azərbaycanın əsasının qoyulduğu tarixi əhəmiyyətli gün kimi də qiymətləndirə bilərik. Belə ki, Ulu Öndər Heydər Əliyev fundamental strateji tədbirlər görməklə, davamlı və nizamlı inkişafı təmin etməyi bacardı. Sürətli sənayeləşmə kursu seçildi və qısa zaman kəsiyində sənaye sahəsinin inkişafında mühüm irəliləyişlər qeydə alındı. Ardıcıl surətdə sənaye müəssisələri tikilib istifadəyə verildi, kənd təsərrüfatı və s. sahələrdə yüksəlişlər meydana gəldi ki, bu da davamlı inkişaf konsepsiyasının həyata keçirilməsini təmin edən əsaslardan biri oldu. Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə neft sənayesində də tənəzzül meyilləri aradan qaldırıldı və bəhs edilən sahədə ehtiyatlardan səmərəli istifadə etməklə davamlı inkişafın əsası qoyuldu. Nəticə etibarilə, neft hasilatı xeyli artırıldı.

Bütün bunlarla yanaşı, təhsil sahəsində də ardıcıl və davamlı islahatlar həyata keçirildi ki, bu da kadr potensialının formalaşdırılması və təkmilləşdirilməsi işinə təməlli töhfələr bəxş etmiş oldu. Məhz Heydər Əliyevin xüsusi diqqət və qayğısının fonunda kadr potensialının formalaşdırılması və təkmilləşdirilməsi istiqamətində azərbaycanlı gənclər SSRİ miqyasında fəaliyyət göstərən ali təhsil müəssisələrinə göndərildilər.

Habelə, azərbaycanlı gənclərin SSRİ miqyasında fəaliyyət göstərən nüfuzlu ali təhsil məktəblərinə göndərilməsi milli mədəniyyətimizin təbliği və möhkəmləndirilməsi, milli diaspor quruculuğunun formalaşdırılması işinə mühüm strateji töhfələr bəxş etdi. Ümummilli Liderimiz həmin anları bu cür xatırlayıb: "O vaxtlar azərbaycanlıları ayrı-ayrı yollarla sovetlər ittifaqının müxtəlif yerlərinə göndərməklə, dayaq yaratmaq istəyirdim. İndi isə sərhədlər açılıb, azərbaycanlılar hər yerdə yaşaya bilər. Bir şərtlə ki, gərək, millətini, dinini, torpağını və Ana Vətənini unutmayasan".

Heydər Əliyevin qətiyyəti sayəsində milli-mənəvi dəyərlərin qorunması və dirçəldilməsi istiqamətində əhəmiyyətli tədbirlər görüldü. Mədəniyyətimiz, incəsənətimiz inkişaf etdi, dünya Azərbaycanı daha yaxından tanımağa başladı. 1978-ci ildə isə, Heydər Əliyevin təşəbbüsü sayəsində Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Bu, milli dilimizin mühafizəsi və təbliği baxımından mühüm tarixi hadisə idi. Bunun ardınca "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı. Nəticədə Ulu Öndər Heydər Əliyevin 1969-1982-ci illər ərzində ölkəyə rəhbərlik etdiyi dövrdə görülən strateji tədbirləri fonunda respublikamız sürətlə inkişaf edərək SSRİ miqyasında xüsusi çəkiyə malik olan və liderə çevrilən respublika adını qazandı.



## Naxçıvandan dünyaya ucalan Ulu səs!

Tarix sübut edir ki, 1990-cı ildə Azərbaycan mürəkkəb situasiya mövcud idi. Əslində mürəkkəb situasiya bütün postsovet məkanını əhatə etsə də, ölkələrdə çox mürəkkəb kataklizmlər cərəyan etsə də, bu olaylar daha çox Azərbaycana və onun ayrılmaz hissəsi olan Naxçıvana öz təsirlərini göstərirdi. Muxtar Respublikanın blokada şəraitində olması, sosial-iqtisadi durumunun bərbadlığı, hakimiyyətin muxtar qurum üzərində oynamağa çalışdığı oyunlar Naxçıvanın vəziyyətini maksimum dərəcədə mürəkkəbləşdirmişdi.




Ardıcıl davam edən olaylar isə, 1991-ci ilin sentyabr ayında Heydər Əliyevin Naxçıvan MSSR-in Ali Sovetinin sədri seçilməsinədək olan tarixi mərhələdə daha da kəskinləşdi. Belə bir çətin zamanda Ali Məclisin Sədri seçilən Heydər Əliyev həyata keçirdiyi islahatlar, gördüyü tədbirlər və işlər sayəsində sabitliyin, tərəqqinin və həmrəyliyin təmin olunmasına nail oldu. Faktlar da bu reallığı kifayət qədər əks etdirməkdədir:

17 noyabr 1990-cı il tarixində Naxçıvan Ali Məclisinin I sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımız qaldırıldı. Milli bayraq məsələsi ilə əlaqədar iki bəndlik qərar qəbul edildi.

Naxçıvan MSSR adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı. SSRİ-nin mövcud olduğu bir dövrdə belə bir qərarın qəbul və icra edilməsi olduqca yüksək siyasi səriştə və cəsarət tələb edirdi ki, Ulu Öndər Heydər Əliyev bunu nümayiş etdirdi.

Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Sovet ordusu, əsgəri birlikləri Naxçıvan MR ərazisindən çıxarıldı.

Həmin vaxtlar Azərbaycanda hakimiyyətdə olan səriştəsiz qüvvələr korporativ maraqlar əsasında çıxış edərək sabitliyə və inkişafa mane olmaq yönündə xüsusi fəallıq göstərirdilər ki, bu da Naxçıvanın durumuna mənfi təsir edən destruktiv faktor qismində çıxış edirdi. Hətta iş o həddə çatmışdı ki, xarici güc mərkəzlərinin marionetləri və vassalları qismində çıxış edən hakimiyyətdəki "peşkalar" Naxçıvanda bir neçə dəfə dövlət çevrilişinə cəhd etdilər.

Bunlardan birincisi Xalq Cəbhəsinin (AXC) Naxçıvandakı 24 oktyabr 1992-ci ildə silahlı dəstələrinin Muxtar Respublikada etdiyi çevriliş cəhdi oldu. Lakin Ulu Öndər Heydər Əliyevin siyasi məharəti və əzmkar naxçıvanlıların Onun ətrafında sıx birləşməsi sayəsində mənfur çevriliş cəhdləri baş tutmadı.

Bunun ardınca, Ulu Öndər Heydər Əliyev milli ideoloji məsələləri önə çəkərək bir sıra təxirəsalınmaz tədbirlər gördü və tarixi qərarlar qəbul etdi. İlk növbədə "1990-cı il yanvar ayının 20-də törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərar qəbul edildi. Qərarda 20 Yanvar hadisələrinin mahiyyəti, siyasi və hüquqi əsasları əks olunmuşdu. Eyni zamanda, 31 dekabrın "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" elan edilməsi barədə də tarixi qərar qəbul edildi.

Digər tərəfdən blokada şəraitində iqtisadiyyatını inkişaf etdirən Naxçıvanın sabitliyinin davamlılığını təmin etmək üçün regional miqyasda münbit strateji münasibətlər sistemi formalaşdırıldı, Türkiyə və İranla qarşılıqlı əməkdaşlığa və tərəfdaşlığa əsaslanan rəsmi təmaslar sıxlaşdırıldı. Nəticədə siyasi fəaliyyətinin Naxçıvan dövründə Heydər Əliyev gördüyü işlər, atdığı rasional, praqmatik addımlarla Muxtar Respublikanın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etmiş oldu. Bəli, bütün bunlar blokada şəraitində həyata keçirildi və belə bir işin öhdəsindən yalnız və yalnız Heydər Əliyev kimi dahi şəxsiyyət gələ bilərdi. Əbəs deyil ki, Ulu Öndərin Naxçıvan fəaliyyəti haqqında dünyanın bir çox nüfuzlu siyasi xadimləri, mətbuat səhifələri geniş fikirlərini heyranlıqla şərh ediblər.

## Xilaskarlıq missiyası...

Ölkəmizin o zamankı iqtidarının müstəqillik ideyalarına etinasız yanaşmalarının nəticəsi idi ki, şəraitdən istifadə edən təcavüzkar Ermənistan strateji baxımdan ən əlverişli ərazilərimizi işğal etdi. Hələ bu da son deyildi..!

Xalqımızın bir sıra ictimai-siyasi xadimlərinin terror aktlarına məruz qalmaları, dövlət strukturları arasında çəkişmələrə start verilməsi və bunların zaman-zaman daha kəskin xarakter alması Azərbaycanın bir dövlət kimi varlığını, yenicə əldə etdiyi müstəqilliyini böyük sual altında qoymuşdu. Həmin ərəfələrdə ağır vəziyyətdən çıxışı təmin edə bilməyəcəyini anlayan Ayaz Mütəllibov iqtidarı məhz AXC-nin təzyiqləri, avantüraçı fəaliyyəti fonunda çıxış yolunu istefa verməkdə gördü. Hakimiyyətə gəlmiş AXC-Müsavat cütlüyü Azərbaycanı sözün əsl mənasında xarici xüsusi xidmət orqanlarının mübarizə meydanına çevirmişdi. Ölkədə tam bir anarxiya yaşanır, daxili çəkişmələrin ardı-arası kəsilmirdi. Hətta əlinə silah alan hər kəs dərhal hakimiyyəti ələ keçirməyə çalışırdı və eyni zamanda, çox təhlükəli separatçılıq amilləri meydana çıxmışdı. Belə bir acınacaqlı vəziyyət 1993-cü ilə, Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəlməsinədək davam etdi. Ölkəmizdə hökm sürən xaotik və anarxist meyllərin neytrallaşdırılmasında, mürəkkəb siyasi-hüquqi kataklizmlərin qarşısının alınmasında və ictimai-siyasi sabitliyin əldə edilməsində Heydər Əliyevin Liderlik keyfiyyətləri birinci dərəcəli amil kimi xüsusi rol oynadı. O, qısa müddətdə ölkədə sabitliyi bərpa etdi, sosial-iqtisadi tənəzzülün qarşısını aldı, müstəqilliyin əsaslarını möhkəmləndirmək istiqamətində addımlar atdı.

## Tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası

Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətlərindən biri də ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılmasıdır. Bu o vaxta təsadüf edirdi ki, o zaman xalqın bir siyasi təşkilat ətrafında birləşərək Azərbaycanı düşdüyü mürəkkəb vəziyyətdən çıxartmağa ehtiyacı vardı. Məhz bu zərurəti hiss edən ölkə ziyalıları Azərbaycan xalqının adından 1992-ci ilin 16 oktyabrında bir araya gəlib Ulu Öndər Heydər Əliyevə "SƏS" qəzeti vasitəsilə "Azərbaycan sizin sözünüzü gözləyir" adlı müraciət ünvanladılar. Sözsüz ki, Heydər Əliyev kimi xalqını, dövlətini sevən bir Lider bu müraciətə biganə qalmadı və 1992-ci il 24 oktyabrında "SƏS" qəzeti vasitəsilə "Yeni, müstəqil Azərbaycan uğrunda" adı ilə müraciətə cavab ünvanladı. Bu cavab həm də ölkəni düşdüyü vəziyyətdən çıxarmaq üçün yol xəritəsi, proqram tipli konsepsiya idi. Və beləliklə bir neçə gün sonra, ölkə ziyalılarının təkidli çağırışları və xalqın etimadı sayəsində Liderin ətrafında birləşməklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. O zamankı hakimiyyət dairələrinin Yeni Azərbaycan Partiyasının yaranmasına göstərdikləri maneələr, ardıcıl təzyiqlər bu yola qədəm qoyan insanları özlərinin ali məqsədlərindən döndərə bilmədi. Heydər Əliyevin yüksək nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi misilsiz etimad partiyanın qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına şərait yaratdı.

*Ardı Səh. 10*

# Böyük Heydər Əliyev və Qalib Xalq!



Əvvəli Səh. 9

Fakt budur ki, YAP siyasi təşkilat olaraq, yarandığı müddətdən cəmi 6 ay sonra siyasi hakimiyyətə gəldi və bu, bilavasitə xalqın dəstəyinin, Ulu Öndər Heydər Əliyevə olan məhəbbətinin, inam və etibarının bariz göstəricisi, təntənəsiidir. Tarixdə isə yarandığı vaxtdan cəmi altı ay sonra iqtidara gəlmiş bu kimi siyasi təşklatlar demək olar ki yoxdur, yaxud barmaqla sayılacaq qədərdir...

O cümlədən, YAP-ın uğurlarının davamlılığını şərtləndirən daha bir mühüm amil partiyada Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılan gəncləşdirmə siyasəti oldu. Partiyanın rəhbərliyində Azərbaycan gənclərinin lideri olaraq İlham Əliyevin təmsilçiliyi bu mənada xüsusilə qeyd olunmalıdır. Məhz 1999-cu ildə keçirilən YAP-ın I Qurultayında o zaman ARDNŞ-in birinci vitse-prezidenti və Milli Olimpiya Komitəsinin prezidenti olan İlham Əliyev partiyanın rəhbər strukturuna seçildi. Əgər nəzərə alsaq ki, cənab İlham Əliyev həmin dövrdə həm də Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri idi, onda bu, partiyanın yeni mərhələdə qazanacağı uğurların başlanğıc nöqtəsi də sayıla bilərdi.

Ulu Öndər Heydər Əliyevin siyasi varisi olaraq İlham Əliyev Yeni Azərbaycan Partiyasının gələcək fəaliyyətinin daha geniş beynəlxalq müstəvilərə daşımaq məqsədini uğurla həyata keçirdi. Artıq bu gün həm ölkə daxilində, həm də beynəlxalq siyasi arenada böyük nüfuza, ələqələrə malik olan YAP ən güclü təşkilat qismində öz sözünü deməkdədir. Partiya dünyada fəaliyyət göstərən aparıcı partiyalarla paralel şəkildəki siyasi təşkilatlanma prosesində öncül mövqeyini tutur, habelə önəmli birliklərdə təmsil olunmaqla Azərbaycan dövlətinin maraqlarını ifadə edir.

## Neft strategiyası: iqtisadi konsepsiya

Sirr deyil ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf və tərəqqi strategiyasının mühüm istiqamətlərindən birini də müstəqil enerji siyasəti təşkil edirdi. Ümummilli Liderin gərgin əməyi və qətiyyəti sayəsində neft müqaviləsi üzrə müzakirələrə, danışıqlara yenidən başlandı və nəhayət, çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri hazırlandı. 1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında dünyanın 8 ölkəsindən 11 iri neft şirkəti ilə "Əsrin müqaviləsi" adlanan beynəlxalq saziş imzalandı. Bununla da Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu.




Heydər Əliyev neft strategiyasının əsas istiqamətlərindən biri kimi, Azərbaycan neftinin dünya bazarlarına nəqlini vacib hesab edirdi. Bu məqsədlə müəyyənləşdirilən ən uğurlu marşrut Bakı, Tbilisi və Ceyhanı birləşdirən boru kəmərinin çəkilməsi idi. Həmin dövrdə müxtəlif xarici qüvvələrin təxribatlarına və təzyiqlərinə baxmayaraq, Heydər Əliyevin əzmkarlığı və qətiyyəti nəticəsində Bakı-Tbilisi-Ceyhanın çəkilməsinə dair sazişin imzalanması mümkün oldu. Türkiyə-Gürcüstan-Azərbaycan dövlətlərinin birliyi, ən əsası isə Ulu Öndərin qəti əzmkarlığı sayəsində bəzilərinin əfsanə hesab etdiyi layihə reallığa çevrildi.

O da sirr deyil ki, bu gün Azərbaycanın bənzəri görülməyən sürətlə inkişafı, dünyada nüfuz sahibi olması, müxtəlif məsələlərə münasibətdə öz mövqeyini ortaya qoyması, heç bir dövlətdən və qurumdan asılı olmayan həqiqi müstəqilliyə malik olması məhz Ulu Öndər Heydər Əliyevin düşünülmüş enerji siyasətinin uğurla davam etdirilməsi sayəsində mümkün olmuşdur. Bir sözlə, düşnülmüş siyasət, iqtisadi proqram və layiqli varis bu gün Azərbaycanı həm bölgədə, həm dünyada söz sahibinə çevirdi.

## Ata vəsiyyətinə sadiq oğul, Fateh Sərkərdə - İlham Əliyev

Bu gün Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın cənab İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə, reallıqlarına və qanunauyğunluqlarına müvafiq surətdə inkişaf etməsi ata vəsiyyətinə sadiqliyin tərənnümüdür. İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda müxtəlif inkişaf modellərinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların mütəmadi qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti, hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması və səmərəli xarici siyasət kursunun həyata keçirilməsi müasir Azərbaycan dövlətinin gücünü artıran fundamental faktor kimi çıxış edir. 44 günlük Vətən müharibəsi və Zəfər reallığı isə bu fundamental faktorlara əlavə əhəmiyyətləri daxil etdi.

Söz yox ki, bu missiyanın təməlini Ulu Öndər Heydər Əliyev "Mən ona özüm qədər inanıram" deyərək öz tarixi müraciətində qoymuşdu. lham Əliyevin hələ 2003-cü ildə ölkə başçısı kimi səlahiyyətlərinin icrasına başladığı ilk gündən hakimiyyəti xalqa xidmət vasitəsi hesab etdiyini bildirməsi xalqına, dövlətinə bağlılığının göstəricisi idi.

Hələ illər öncə İlham Əliyev dövlət xadimi olaraq Azərbaycanın Ermənistanın işğalçılıq siyasəti ilə barışmayacağını bəyan edir, torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmayacağını vurğulayır, haqq və ədalət səsimizi çoxsaylı beynəlxalq sammit və konfranslarda bəyanatlarla ucaldırdı. Əgər bu gün beynəlxalq aləmin mühüm hissəsi özünü Azərbaycanın yanında gördüyünü qeyd edirsə, bunun kökündə düzgün xarici siyasət reallığının dayanması şəksizdir. Daha dəqiq desək, məqsədyönlü xarici siyasət nəticəsində Azərbaycan dünya birliyinin layiqli üzvünə və regionun liderinə çevrilib. Ancaq qarşıda Azərbaycan xalqının, dövlətinin bir nömrəli problemi qalmaqdaydı və bu problemin kökündən həll olunması vacibliyi özünü daha çox göstərməyə başlamışdı.

Şuşamızın işğaldan azad olunduqdan sonra Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edən cənab İlham Əliyev həm də ata vəsiyyətini yerinə yetirdiyini qürurla, şərəflə vurğuladı. Bu, həm də belə bir qənaətdir ki, Heydər Əliyev zamanında işğal altındakı torpaqlarımızın, xüsusilə də Şuşamızın azad olunmasında siyasi varisi cənab İlham Əliyevin möhtəşəm yer alacağını görürdü. Uzaqgörən və əbədi liderimizin Şuşa vəsiyyəti də onun azad olunmasından sonra xalqımıza çatdırıldı. Həqiqətən də bu böyük, nəhəng bir tarixi hadisə oldu və bu hadisənin canlı şahidləri olaraq bizlər nə qədər şərəfli tarixi dövrü yaşamağımızdan hədsiz qürur hissi duymaqdayıq. Ən əsası, Fateh Sərkərdə İlham Əliyevin cəsarəti, uzaqgörənliyi sayəsində uzun illərdən sonra Xalqımız "Qalib" statusuna yüksəldi və torpaqlarımız işğaldan tam azad olundu. İndi fəxarətlə deyirik: "Biz Azərbaycanlıyıq". Bu hiss ölçüyəgəlməz dərəcədə nəhəngdir!

Bu, Ulu Öndər Heydər Əliyev yolunun davamı, xalqın birmənalı dəstək verdiyi siyasətin məntiqi nəticəsidir. Azərbaycan xalqını qarşıda hələ çox təntənəli, möhtəşəm və nəhəng zəfərlər, qələbələr gözləyir!

# "Heydər Əliyev Fondu Azərbaycan vətəndaşı üçün ümid yerinə çevrilib"

**"Ötən dövrün təcrübəsi göstərir ki, Cənubi Qafqaz kimi mürəkkəb coğrafiyada Azərbaycanın müasir dövlətçiliyinin, müstəqilliyinin və gücünün təməlində Heydər Əliyev siyasi kursu dayanır. Heydər Əliyev özünün azərbaycançılıq ideologiyası ilə elə müstəqil Azərbaycan deməkdir. Artıq mübahisəsizdir ki, bu regionda heç bir amil Əliyev kursu qədər tam mənada müstəqilliyimizin qarantına çevrilə bilmir. Bütün yaşananlar, əldə olunan müstəsna nəticələr göstərir ki, Azərbaycan üçün ən doğrusu məhz Heydər Əliyev yolunun davamlılığıdır. Bunun üçün isə Ulu Öndərin irsini dərindən öyrənmək zərurətdir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib.**



Onun sözlərinə görə, 20 il əvvəl Ulu Öndər irsini yaşadan, öyrənən və öyrədən Heydər Əliyev Fondunu da məhz bu zərurət meydana çıxardı: "Əminliklə deyə bilərik ki, Fond birinci xanım, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında Ulu Öndərin arzuladığı dövlət quruculuğunda nəinki aktiv rol almağı bacardı, hətta bir sıra istiqamətlərdə, o cümlədən sosial-mədəni və humanitar sahələrin inkişafında aparıcı mövqe tutdu. Daha da konkretləşdirsək, Heydər Əliyev Fondunun yaranması və Fondun Mehriban xanım Əliyevanın uğurlu rəhbərliyi ilə fəaliyyəti Azərbaycanın elm, təhsil və mədəni həyatında yeni səhifələr açıb, cənab Prezidentin rəhbərliyi altında başlanan islahatların qeyd edilən istiqamətlərdə daha çevik və daha səmərəli reallaşması üçün zəmin yaradıb və hətta hərəkətverici qüvvəsinə çevrilib. Yalnız onu demək kifayətdir ki, Heydər Əliyev Fondunun yarandığı 20 il ərzində, 1918-ci ildən Fondun yarandığı dövrə qədərki müddətdə tikilən məktəblərin sayından bir neçə dəfə çox məktəb inşa edilib. Səhiyyə sistemi, demək olar ki, tamamilə yeni dönəminə qədəm qoyub, ən müasir səhiyyə infrastrukturu formalaşdırılıb, eyni zamanda tibb xidmətinin əlçatanlığı və inklüzivliyi təmin olunub. Habelə mədəniyyət və incəsənət sahəsində Azərbaycan tarixinin heç bir dövründə olmadığı qədər əsaslı dönüşə nail olunub. Muğam və aşıq sənətinin timsalında milli incilərimiz nəinki yenidən dirçəlib, üstəlik dünya irsinin qiymətli nümunələri kimi tanıdılıb. Mədəniyyət və incəsət xadimlərinin sosial rifahının gücləndirilməsi, bütövlükdə humanitar sahədə menecmentin milli xarakter nəzərə alınmaqla beynəlxalq standartlara uyğunlaşdırılması təmin olunub".

Deputat vurğulayıb ki, Heydər Əliyev Fondunun titanik uğurlarının kökündə, heç şübhəsiz ki, Mehriban xanım Əliyevanın Ulu Öndərin azərbaycançılıq ideologiyasına sədaqəti dayanır: "Təsadüfi deyil ki, münaqişə dövründə, ələlxüsus Vətən müharibəsi və antiterror tədbirləri zamanı milli həmrəyliyin güclənməsi prosesində Mehriban xanım Birinci vitse-prezident kimi fəaliyyəti ilə yanaşı, həm də Heydər Əliyev Fondunun praktik addımları ilə möhtərəm cənab Prezidentin əsas silahdaşı kimi qələbəmizdə müstəsna rol oynadı. Birmənalı şəkildə demək olar ki, Vətən müharibəsində möhtərəm cənab Prezident müzəffər Ali Baş Komandan olaraq hərbi-siyasi və diplomatik savaş apararkən arxa cəbhənin mənəvi və bir çox hallarda maddi yükü Mehriban xanım Əliyeva və rəhbərlik etdiyi Fondun üzərinə düşdü. Mehriban xanım bu dövr ərzində hər bir şəhid ailəsinin, hər bir müharibə əlili və döyüşlərin iştirakçısının ümid yerinə çevrildi. Bildiyiniz kimi, hazırda Böyük Qayıdış prosesinin ilkin mərhələsi kimi işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq və bərpa prosesi həyata keçirilir və cənab İlham Əliyevin də qeyd etdiyi kimi, bütün işlər Azərbaycanın öz gücü və imkanları hesabına aparılır. Heydər Əliyev Fondu bu prosesdə də aktiv rol almaqdadır. Məlumdur ki, Zəfərdən cəmi 8 gün sonra Mehriban xanım Əliyeva cənab Prezidentlə birlikdə mina təhlükəsi və digər ağır şərtlərə baxmayaraq işğaldan azad olunmuş bölgələrə səfər edərək tariximizin ən irihəcmli quruculuq-bərpa prosesində, mədəni-tarixi, habelə dini abidələrin bərpası prosesində təşəbbüsləri ələ aldı. Bu gün zərgər dəqiqliyi və ürək yanğısı ilə yenidən həyata qaytarılan, yaxud yenidən inşa edilməkdə olan çoxsaylı məscidlərimiz və digər abidələrə məhz Heydər Əliyev Fondu ikinci həyat verməkdədir.

"Heydər Əliyev Fondu Azərbaycan vətəndaşı üçün həm də ümid yerinə çevrilib. Möhtərəm Prezidentin özünə ünvanlanan müraciətləri çıxmaq şərti ilə, Fonda ünvanlanan məktublar ümumilikdə bütün digər strukturlara ünvanlanan məktublardan daha çoxdur. Bu, Mehriban xanıma və rəhbərlik etdiyi Fonda olan inamın, güvənin göstəricisidir. Eyni zamanda Azərbaycan cəmiyyətinin tarixi dəyərlərə əsaslanan xeyriyyəçilik ənənələri Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilir. Bu gün nəinki Azərbaycanda, ümumiyyətlə, Cənubi Qafqazda Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi bu Fond ən böyük xeyriyyəçidir.

Qeyd edilənlərin yanı sıra, bu gün ölkə daxilində və Azərbaycandan xaricdə, Pakistandan Fransaya qədər geniş arealda Heydər Əliyev Fondunun gördüyü işlər Azərbaycan tarixinin qızıl səhifələri hesab olunur və fəaliyyətin çoxşaxəliliyi, sözün əsl mənasında, uğur hekayəsi sayılmalıdır. Bu mənada yaradılmasının 20-ci il dönümündə Heydər Əliyev Fondu və şəxsən Mehriban xanım Əliyeva Ulu Öndərin irsini dahi Liderin adına layiq formada, ləyaqətli yaşatdığı üçün ən səmimi minnətdarlığı haqq edir",- deyə deputat əlavə edib.

***Ləman Sərraf***

## "Ermənistanın bu dəfə cəzası ağır olacaq"

*MÜNASİBƏT*

"Ermənistanın Rusiyanın hesabına yaşayıb ona arxa çevirməsi, həm də Qərbə xəyanət etməsi əslində ermənilərin xarakterinə xas olan məsələdir, onların xislətindən doğur". Bu sözləri SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.



O bildirib ki, adətən kim onlara qonaqpərvərlik göstərirsə, kim onlara dəstək olursa, həmişə ona qarşı çevrilirlər: "Bu, tarixən də belə olub. Spartak üsyanından bəri axtarsaq, görəcəyik ki, bütün hallarda ermənilər bu və ya digər formada həm ona dəstək olanı, həm də onları dəstəkləyənlərin hamısını satıblar. Rusiyanı satmaqları əslində gözlənilən idi. Çünki ermənilər başqa cür hərəkət edə bilməzdilər. Azərbaycanı iki yerə bölən Rus imperiyası idi, onları Azərbaycana köçürən Rus imperiyasıdır, onlara saxta dövlət verən, ərazisini 9 mindən 29 minə çatdıran yenə Rus imperiyasıdır. Bütün bunların fonunda, təbii ki, onun üzünə ağ olmalı idilər. Bizdə də atalar misalı var: "yetimə deyirlər ki, kimi döyərsən, deyir, mənə çörək verəni". Buna ona görə xəyanət deməyək. Ermənilərin xislətindən doğan bir şeydir. Bu, belə də olmalı idi".

"Qaldı ki, ermənilərin sanksiyalı mallar satmasına, bu da onların xislətindən doğur. Heredotun 7-ci tarix kitabında var ki, qısa müddət ərzində o qədər işlər qarışdırırlar ki, yerli xalqın adət-ənənəsini mənimsəmək kimi işlər bu gün də davam edir. Onları tıxanlı məftilin içinə salırlar ki, yerli əhali ilə görüşə bilməsinlər. Yenə də qadağan olunmuş ərazidən çıxmaq, ara qarışdırmaq, mallar satmaq ermənilərin tarixində bizim eradan əvvəldən başlayır. Ermənilər min illərdir bununla məşğuldur. Ona görə də bu onların düşüncəsinə görə normaldır. Biz türklərə baxmayın, bizdə insanlıq, sədaqət çox yüksək qürur, şərəf sayılır. Ermənilərdə bu yoxdur. Onların etdiyi xəyanət, ikiüzlülük Azərbaycana da edilib. Qarabağda Azərbaycana meydan oxuyan ermənilər indi hansılar ki, yenidən geri qayıtmaq istəyirlər əvvəlki azərbaycanlıların onlara yaratdığı cənnətə, onlar da söyməyə başlayırlar. Onlar üçün bu, həyat tərzidir. Amma Ermənistanın bu dəfə cəzası ağır olacaq.

Dünən Moskvadakı razılaşmada rus sərhədçiləri təkcə Zvarnots hava limanından çıxmır, həm də Ermənistan sərhədlərindən də çıxırlar. Bu o deməkdir ki, Ermənistanı hazırlayırlar. Vaxtilə Azərbaycanda da ordu çıxandan sonra ara qarışdı. Yəqin ki, Ermənistanı da elə bir tale gözləyir. Qərb nə edəcək, onu deyə bilmərəm, amma bütün hallarda gözləyirəm ki, Ermənistanda dövlət çevrilişi ola bilər" - deyə o, əlavə edib.

***S. Ağazadə***

## "Azərbaycana 100 ölkədən 55 mindən yuxarı qonaq gələcəyi gözlənilir"




"COP29-un keçirilməsi böyük beynəlxalq hadisədir". Bu sözləri SİA-ya açıqlamasında deputat Rüfət Quliyev deyib. Deputat bildirib ki, hətta bir çox siyasi, iqtisadi ekspertlər bu tədbiri BMT-nin baş assambleyasının iclasına bərabər sayırlar: "Azərbaycana təxminən 100 ölkədən 55 mindən yuxarı qonaq gələcəyi gözlənilir. Proqnozlara görə 85 ölkənin rəhbəri gələcək. Dünyada ən tanınmış alimlər, ekspertlər, nəhəng şirkətlər, ekoloji problemlərlə məşğul olan bütün tanınmış insanlar Azərbaycanda olacaqlar. Bu, bir də onu göstərir ki, Azərbaycan onlarla yüksək səviyyədə olan beynəlxalq toplantılar keçirir və gələn qonaqlar bir daha yeniləşən, inkişaf edən, çiçəklənən Azərbaycanı görürlər, onlar böyük təəssüratlarla qayıdırlar, bütün dünyada bunu danışırlar, bölüşürlər. Bizdə çox maraqlı bir trend var ki, Azərbaycan hansı işə əl qoyursa, o işdə ya birinci, ya üçlükdə, ya da beşlikdə olmalıdır. Azərbaycanda artıq belə bir ənənə var. İstər idman olsun, istər elmi konfranslar, mədəniyyətlə əlaqədar olan beynəlxalq festivallar, transmilli layihələr olsun, bunların hamısı həyata keçirilib və davam edir. Bu, o deməkdir ki, Azərbaycan hakimiyyəti başda cənab Prezident olmaqla çox proqmatik, realistik gələcəyə böyük baxışlarla siyasət qurub, bu siyasəti inkişaf etdirir. Təbii ki, biz hamımız bununla fəxr edirik. Mən öz seçicilərim adından cənab Prezidentə öz minnətdarlığımı bildirirəm. Azərbaycan artıq dünyəvi ölkəyə çevrilib. Bizimlə hesablaşırlar, bizimlə məsləhətləşirlər, bizim sözümüzə qulaq asırlar. Bu, böyük nailiyyətdir. Azərbaycan balaca bir ölkədir, 10 milyondan yuxarı əhalisi var. Amma biz 100 milyonlarla əhalisi olan ölkələrlə görün, necə münasibətlər qururuq.

Cənab Prezident Moskvaya getmişdi. Putinin Azərbaycan Prezidentini qarşılamasının, qeyri-adi, mehriban formada yola salmasının, cənab Prezident İlham Əliyev, Ulu Öndər Heydər Əliyev barəsində çox önəmli sözlər deməsinin şahidi olduq".

***Söylü***

# Azərbaycanla Həştərxanın tarixi dostluq bağları

Azərbaycan ilə Rusiya münasibətlərinin kökləri uzaq keçmişə gedib çıxsa da, bugünkü münasibətlərdə ölkə başçılarının əlaqələrin daha da dərinləşməsində rolu müstəsnadır. İki ölkənin dövlət başçıları arasında qarşılıqlı etimada əsaslanan əlaqələr, məhz möhkəm təməl üzərində inkişaf edir. Ticari-iqtisadi və investisiya, energetika sferalarında, nəqliyyat infrastrukturu və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq dərinləşir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə vurğuladığı kimi, ictimai-siyasi və humanitar sahələrdə Rusiya ilə Azərbaycan arasında siyasi dialoq, fəal parlamentlərarası və regionlararası əməkdaşlıq tənzimlənib. Ticari-iqtisadi, investisiya, elmi-texniki və humanitar əlaqələr, vətəndaş cəmiyyəti təsisatları arasında kontaktlar genişlənir. Ölkələrimiz arasında yüksək səviyyəli qarşılıqlı səfərlər, 260 sənədi əhatə edən geniş hüquqi baza və mütəmadi qaydada keçirilən iqtisadi forum və konfranslar ikitərəfli münasibətlərin inkişafında həlledici mühüm rol oynayır.







### ƏLAQƏLƏRİN DAHA DA MÖHKƏMLƏNMƏSİNDƏ KÖRPÜ

Təbii ki, Rusiya və Azərbaycanı tarixi möhkəm dostluq və əməkdaşlıq ənənələri bir-birinə bağlayır. Bu münasibətlər qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır. Azərbaycan ilə Rusiya Federasiyası arasında dostluq münasibətləri müxtəlif sahələrdə uğurla inkişaf edir və ölkəmizin Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Həştərxan vilayəti ilə həyata keçirdiyi əməkdaşlıq da əlaqələrin davamlığına öz töhfəsini verir. Həştərxan vilayəti ilə Azərbaycanı tarixi dostluq əlaqələri bağlayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 6-da Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkini qəbul etməsi fikirlərimizi əsaslandırır. Görüşdə Azərbaycan Prezidentinin bu yaxınlarda Rusiyaya uğurlu səfəri qeyd olunaraq, bu səfərin əlaqələrimizin daha da möhkəmlənməsini nümayiş etdirdiyi bildirilib. Dövlətimizin başçısı bu səfər çərçivəsində Rusiya Prezidenti ilə birlikdə Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə Moskvada dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşündə tədbir iştirakçılarının Ulu Öndərin bu layihənin reallaşmasındakı xidmətlərini böyük hörmətlə yad etmələrindən məmnunluğunu bildirərək, vurğulayıb ki, bu, münasibətlərimizin səmimiliyini nümayiş etdirir və qürur hissi doğurur.

Cari ilin aprelin 22-də Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşü bu əlaqələrin davamlığına söykənir. Bildiyimiz kimi, Baykal-Amur Magistralının 50 illiyidir. Sovet İttifaqı üçün mühüm layihənin təşkilatçılarından olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin magistralın tikintisindəki xidmətləri bu gün də yüksək səviyyələrdə etiraf və təqdir olunur. 1974-cü ildə tikintisinə qərar verilən layihənin icrası məqsədilə o vaxt hələ Azərbaycana rəhbərlik edən Heydər Əliyevin tapşırığı ilə minlərlə gənc BAM-a yollandı. "Heydər Əliyev amili Rusiya və Azərbaycanın dövlətlərarası münasibətlərində həmişə mühüm rol oynayıb və oynayacaq." Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinlə birlikdə Baykal-Amur Magistralının (BAM) 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşündə bildirib. Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsinə görə BAM inşaatçılarına təşəkkür edən dövlətimizin başçısı Anqoya qəsəbəsindəki vağzala Ulu Öndər Heydər Əliyevin adının verilməsini xatırladıb. İlham Əliyevin dediyi kimi, BAM üzərində iki gözəl qəsəbə tikdilər. Amma əsas odur ki, onların memarlığı Azərbaycan milli üslubunda hazırlanıb. Bu qəsəbələr Ulkan və Anqoyadır.

Ölkələrimiz arasında əlaqələrin sürətli inkişafının qarşıdakı dövrdə də uğurla davam etdirilməsi və daha da genişləndirilməsi məqsədilə bu ilin yanvarında "Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsi" imzalanıb. Həştərxan vilayətinin qubernatoru ilk növbədə İlham Əliyevi Prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik edərək, bunu Azərbaycan xalqının dövlətimizin başçısına sonsuz etimadı kimi dəyərləndirib. İqor Babuşkin ötən il Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Həştərxanda geniş miqyasda bir sıra təntənəli tədbirlərin keçirildiyini deyərək, bununla bağlı hazırlanmış xatirə fotoalbomunu dövlətimizin başçısına təqdim edib.

### HƏŞTƏRXAN VİLAYƏTİNDƏ HEYDƏR ƏLİYEV FONDUNUN GENİŞMİQYASLI LAYİHƏLƏRİ

Prezident İlham Əliyev Həştərxanda Ümummilli Liderin xatirəsinə göstərilən yüksək etimada görə minnətdarlığını bildirərək, bunu ölkələrimiz və xalqlarımız arasında dostluğun nümunəsi olduğunu diqqətə çəkib.Həştərxan vilayətinin qubernatoru Xəzəryanı ölkələri əhatə edən və dostluq rəmzi olan "Xəzər - Dostluq dənizi" devizi altında həyata keçirdikləri motoyürüşə Azərbaycan hökumətinin dəstəyinə görə minnətdarlığını ifadə edib.

Söhbət zamanı Heydər Əliyev Fondunun Həştərxanda reallaşdırdığı layihələrin önəminə də toxunulub. Prezident İlham Əliyevin göstəriş və tapşırığı əsasında Həştərxan vilayətində Heydər Əliyev Fondunun təşəbbüsü və maliyyə dəstəyi ilə genişmiqyaslı layihələr həyata keçirilmişdir. Bu cür dinamik inkişafın göstəricisi və iki dövlətin dostluq əlaqələrinin bariz nümunəsi kimi, Həştərxan vilayətinin mərkəzində yerləşən 3,5 hektar ərazisi olan parkda geniş abadlıq və quruculuq işləri aparılmış, Bakı küçəsində yerləşən 11 nömrəli orta məktəbə Ulu Öndər Heydər Əliyevin adı verilmişdir. Həyata keçirilən layihələrin davamı olaraq Həştərxan şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunmuş və Rusiya Dostluq körpüsünün və Heydər Əliyev parkında yaradılmış, "Meçta" uşaq əyləncə şəhərciyinin və eyniadlı uşaq kafesinin, Müqəddəs Vladimir məbədinin önündəki meydanda Knyaz Vladimirin abidəsi və abidənin yerləşdiyi ərazidə salınmış park görülən işlərin davamıdır. Həştərxan şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə Voljskiy küçəsində "Dostluq" uşaq bağçasının açılışı da vurğulanmalıdır. Həştərxanda "Azərbaycan-Rusiya dostluq körpüsü"nün açılması, Nərimanov rayonunda isə "Bakı və Həştərxan dostluğu" abidəsinin ucaldılması iki qardaş xalqın səmimi münasibətlərinin uğurlu simvoludur. Azərbaycan Prezidenti İlham Əliyev şəhər dumasının qərarı ilə "Həştərxan şəhərinin fəxri vətəndaşı" adına, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva isə "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeninə layiq görülmüşdür.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.Bütün bu və digər görülən işlər münasibətlərin daha da sıxlaşmasında və əlaqələrin genişlənməsində önəmli faktorlardır.

***Zümrüd BAYRAMOVA***

## "Paytaxtda və digər ərazilərdə qiymətlərdə kəskin artımlar müşahidə edilir"

### *EKSPERT DANIŞDI*



"Məcburi köçkünlər işğaldan azad edilmiş ərazilərə köçdükcə onlara dövlət tərəfindən verilmiş mənzillər mərhələli şəkildə satışa çıxarılacaq. 1-ci planda satışa çıxarılmış evlər məcburi köçkünlər üçün nəzərdə tutulsa da, həmin evlər onlara deyil, bir hissəsi şəhid ailələrinə verildi, digər hissəsi isə daha ucuz qiymətə satışa çıxarılıb. Artıq növbəti mənzillərin satışa çıxarılması ilə bağlı xəbərlər yayılır. Həmin mənzillərin satış qiymətinə ümumi nəzər salsaq, görərik ki, bu evlər ölkə ərazisində tikilən bütün çoxmənzilli yaşayış binalarının ən minimal qiymətinə satışa çıxarılır. Yəni maya dəyərindən söhbət gedir". Bu sözləri SİA-ya açıqlamasında Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev deyib.

Onun sözlərinə görə, tikililərin əraziləri dövlət tərəfindən verilməsəydi, onların satış qiyməti daha baha olardı: "Çoxmənzilli binaların torpaq əraziləri dövlət tərəfindən verilən sosial layihə olduğuna görə mənzillərin satış qiyməti sadəcə tikinti və təmir xərcləri üçün nəzərdə tutulub. Təbii ki, bu, əmlak bazarına öz təsirini göstərir. Lakin bu tip yaşayış binaları daha çox mərkəzdən kənar ərazilərdə tikilib. Həmin ərazilər üçün qiymət normaldır".

Ekspert bildirib ki, qiymət normal olsa da, insanlar daha çox şəhərin mərkəzi hissələrinə yaxın ərazidə mənzil almaq istəyirlər: "Növbəti satışlarda aztəminatlı insanların ev probleminin aradan qaldırılması üçün mütləq şəkildə bu cür layihələr rol oynayacaq. Hətta bu mənzillər ucuz qiymətə uzunmüddətli kredit şərtləri ilə satılır. Tam təmirli bu mənzillər dövlətin sifarişi ilə tikildiyinə görə həmin binaların hər birində qaz, su, işıq və kommunikasiya xətləri və çıxarışları təmin olunur. Qiymətlər son illər artan xətt üzrə gedir. Paytaxtda və digər ərazilərdə qiymətlərdə kəskin artımlar müşahidə edilir. Bu cür layihələr təbii ki, aztəminatlı insanlar üçün mənzil sahibi olmağı əlçatan edəcək".

***Ləman Sərraf***

# Erməni kilsəsi - müharibə və qan hərisləri...



**Görünən odur ki, Ermənistanda yaşanan son proseslər əsrlərdən bəri bu cəmiyyətdə hakim olan təhlükəli ideyaların hələ də qüvvədə olduğunu, kilsənin reallıqdan uzaq durmaqda israrlı olduğunu və ən pisi - qonşu ölkədə gərginliyi maksimum həddə çatdırmaq niyyətindən əl çəkmədiyini göstərir**

Ermənistanda ictimai-siyasi vəziyyət gərgin olaraq qalır. Belə ki, erməni Qriqoriyan kilsəsi Ermənistan hakimiyyətinə qarşı açıq müharibəyə başladığını elan edib. Radikal müxalifət və bəzi kənar qüvvələr də kilsənin bu addımını dəstəkləyir və onlara yardım göstərir. Günlərdir ki, Ermənistanın Tavuş vilayətindəki radikallara rəhbərlik edən Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan Tavuşdan İrəvana yürüşə başlayıb və yürüşün mayın 9-da İrəvana çatacağını, xalq hərəkatına çevriləcəyini iddia edib. Artıq bir neçə həftədir ki, kilsə ”qəhrəmanları” kəndlərin geri qaytarılmasına qarşı etiraz aksiyaları keçirirlər. Aksiyaların üzdə olan ”qəhrəmanı” isə özünü Tavuş ”arxiyepiskopu” kimi qələmə





verən separatçı, revanşist Baqrat Qalstanyan mayın 5-də mətbuatın kilsənin ”Vətən üçün Tavuş” hərəkatına qoşulub-qoşulmadığı barədə sualına cavab olaraq ”Biz Patriarx həzrətlərinin xeyir-duası olmadan hərəkət etmirik”- deyib. O, həmçinin ”Eçmiədzinin ana taxtı həmişə bizimlədir. Erməni patriarxı bizim atamızdır, bizə xeyir-dua verir və bizə rəhbərlik edir” bildirib. Hələ bu azmış kimi, 96 yaşlı Lena qarı da separatçılara, revanşistlərə qoşulub. Erməni kiləsisinin şər niyyətlərinə səcdə edən qarı hətta Kirantsdan İrəvana yürüşə başlayan ”Vətən naminə Tavuş” hərəkatının iştirakçılarına ”xeyir-dua” verib. Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan bildirib ki, yol boyu nə siqaret, nə də qışqırıq səsi olmamalıdır.

Elə bütün bunların fonunda Baqrat Qalstanyanla bağlı maraqlı faktlar üzə çıxır. Hakim ”Vətəndaş Müqaviləsi” partiyasından olan deputat Qaqik Melkonyan qeyd edib ki, Baqrat Qalstanyan Rusiyanın ən yaxşı agentlərindən biridir. O, son hadisələr fonunda hökumətin sanki sarsıldığı barədə iradlara cavab verərkən deyib: ”Siyasi hakimiyyətin sarsıldığını necə görmək olar? Tavuş yeparxiyasının primatı gəlir, birdən-birə siyasi hakimiyyət sarsıldı? Heç nə olmayacaq, çünki bu hərəkətlər 2018-ci ildən bəri mövcuddur”. O qeyd edib ki, müxalifət xalqı toplaya bilməyib: ”Baqramyan prospektini aylarla bağlı saxladılar. İnsanları toplamaq üçün hər şeyi etdilər, amma bacarmadılar. İndi isə arxiyepiskopla 40 nəfər gəzir. Nikol Paşinyan 12 nəfərlə Gümrüdən gəlib. Baqrat Qalstanyan bel çantasını unudub, götürməli idi. Belə çantası yoxdursa, uğur qazana bilməyəcək”.



Bununla Qaqik Melkonyan kilsənin hakimiyyətə qarşı fəaliyyətinə istehza ilə yanaşdığını göstərib. O, müxalifət və kilsəni qeyri-ciddilikdə ittiham edib: ”Əgər bir şey ciddi deyilsə, onu necə ciddi qəbul etmək olar? Əgər insanlar ölkəni dağıtmaq istəyirlərsə, hansı ciddilikdən danışmaq olar? Əvvəlcə onlar Tavuşda toplaşıblar və nə ediblər? Bəli, ciddiləşməliyik, ölkəni itirmək təhlükəsi var, bundan qorxmaq lazımdır. Onlardan üçüncü ölkə kimi, Rusiya tərəfindən Ermənistanı müharibəyə sürükləmək üçün ”beşinci kolon” kimi istifadə olunur”. Melkonyan əlavə edib ki, Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının baş məmuru Baqrat Qalstanyan bir çoxları kimi Rusiyanın ən yaxşı agentlərindən biridir: ”Rusiyanın Ermənistanda həmişə agentləri olub, onlar hələ də fəaldırlar. Kilsə KQB ilə əlaqəli idi. Xaricdəki keşişlərimizin yarıdan çoxu KQB agentləri idi. Bu barədə özləri danışırlar. Əgər Baqrat Qalstanyan Tavuş yeparxiyasının primatıdırsa, onda niyə İrəvana üz tutur?”. Qaqik Melkonyan radikal müxalifəti də sərt tənqid edib: ”Robert Koçaryanın, Serj Sarkisyanın rəhbərliyi altında onların bütün əlaltıları yürüşü müşayiət edir. Orada səlahiyyətli şəxslər var, ona izah etdilər ki, sərhədin demarkasiyası olmalıdır, bizim dövlət sərhədimiz olmalıdır. Amma Baqrat Qalstanyan deyir ki, əsgərimizin ayağı hardadır, sərhədimiz də ordadır. Biz Azərbaycanla razılaşdıq ki, 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq demarkasiya aparaq. Bizim ərazilərimiz olan o sərhədlərin sahibi bizik”.

Ermənistanın hakim partiyasının deputatı Ovik Ağazaryan Tavuşdan İrəvana yürüş edən keşiş Baqrat Qalstanyanı ”yalançı dindar” adlandırıb. O, bu barədə Feysbuk səhifəsində yazıb. Ağazaryan ad çəkməsə də, Qalstanyanın arxasınca İrəvana apardığı insanların cəlladı rolunda çıxış etdiyini də bildirib: ”Həmişə inkvizisiyaya məruz qalanlara həsəd aparmışam, çünki onların mavi gözlərinin dərinliyində yalançı təqvası olan cəlladlarından fərqli olaraq, baxışları dəyər sistemi və ideyalarına inam saçırdı”.

Ermənistan hökuməti də öz növbəsində revanşist keşiş Baqrat Qalstanyanın rəhbərlik etdiyi aksiyanın qarşısını almaq üçün ssenari hazırlayıb. Bu barədə Ermənistanın ”Joqovurd” qəzeti yazır. Nəşr bildirir ki, Nikol Paşinyan hökuməti mümkün addımlar barədə baş keşiş II Qareginə (Eçmiədzin kilsəsi) xəbərdarlıq edib: ”Hakimiyyət müxtəlif kanallarla Eçmiədzinə elçilər göndərərək, Baqratı Nikol Paşinyanın istefası məsələsini gündəmə gətirməməyə çağırıb. Kilsəyə ultimatum veriblər ki, etirazlar Paşinyanın istefası tələbi olmadan yalnız sərhədin demarkasiyası prosesi baxımından ifadə edilməlidir. Əks halda kilsə və üzvlərinə qarşı sərt addımların atılacağı bildirilib. Hökumətin elçiləri eyham vurdular ki, etirazçıları toqquşmalara aparmağa hazır olmalıdırlar, çünki güc tətbiq olunacaq”.

Görünən odur ki, Ermənistanda yaşanan son proseslər əsrlərdən bəri erməni cəmiyyətinə hakim olan təhlükəli ideyaların hələ də qüvvədə olduğunu, erməni kilsəsinin reallıqdan uzaq durmaqda israrlı olduğunu və ən pisi - qonşu ölkədə gərginliyi maksimum həddə çatdırmaq niyyətindən əl çəkmədiyini göstərir. Erməni din xadimləri, xüsusilə də Tavuşda və Zəngəzurdakı keşişlər revanşist ideyaların təbliğatçısı olmaqla yanaşı, aşkar şəkildə yeni müharibə tələb edirlər. Onların illüziyalarında Ermənistanın sərhədləri Kür çayının qərb sahillərindən başlayaraq Türkiyənin Trabzon və Şanlıurfa vilayətlərində başa çatır. Üstəlik, Eçmiədzin ermənilərə ”böyük Ermənistan” xülyasını tarixi gerçək qismində təqdim edərək, reallıq əvəzində xam xəyallarla yaşamağın daha üstün olduğunu aşılamağa çalışır. Azərbaycanla sülh sazişinin imzalanmasını, şərti dövlət sərhədinin demarkasiya və delimitasiya prosesini, Zəngəzur dəhlizi layihəsinin gerçəkləşməsini, Türkiyə ilə münasibətlərin normallaşmasını ”xəyanət” kimi qələmə verən Erməni Apostol Kilsəsi hazırda Nikol Paşinyan hakimiyyətinə düşmən kəsilib. Rəsmi İrəvan bu təhlükənin öhdəsindən gələ biləcəkmi?

***Sevinc Azadi***

# Xoşbəxt olmayan evlilik seçimdir, yoxsa imtahan?



## EKSPERT RƏYLƏRİ

Bəzən evliliyin ilk illərində cütlüklər arasında müəyyən problemlər yaranır. Əgər xoşbəxt olmayan evlilikdə qalmağa davam ediriksə, bu bizim seçimimiz hesab olunur? Bəs, bu seçimi niyə edirik? SİA mövzu ilə bağlı sosioloq və psixoloq fikirlərini öyrənib.

Sosial məsələlər üzrə ekspert Fatimə Hacıbəyli: "İndiki gənclərin düşüncələrinə və hadisələrə yanaşma tərzlərinə baxanda adam dəhşətə gəlir. Evliliyin ilk dövründə cütlüklər, ailələrinin evliliklərində gördükləri, ətraflarında şahidlik etdikləri, oxuduqları kitablar və izlədikləri filmlərə görə xəyallarında evlilik həyatı gözləyirlər. Mükəmməl evlilik xəyalları "heç vaxt onlar kimi olmayaq" və ya "biz tam olaraq belə olmalıyıq" kimi planlarla qurulur. Ancaq evliliyin xoşbəxt sona çatacağına və bundan sonra da xoşbəxt yaşayacağınıza dair real olmayan gözləntilər evliliklərə böyük zərər verə bilər.





Bir-biri ilə daha tez-tez fiziki təmasda olan cütlüklərin daha xoşbəxt olduğu düşünülür. Həyat yoldaşlarına toxunmaqdan, əllərini tutmaqdan, onları qucaqlamaqdan və cinsi əlaqədə olmaqdan zövq alan cütlüklər evliliklərində özlərini daha yaxşı hiss edirlər. Cinsi əlaqəyə kifayət qədər əhəmiyyət verməyən cütlüklər bir-birindən uzaqlaşır və bu evlilikdə aidiyyət hissinin azalmasına səbəb olur.

Evliliyin uzun bir yol olduğunu unutmayan və zaman-zaman enişli-yoxuşlu yollardan keçmək məcburiyyətində qalacağını bilən cütlüklər, evliliklərinin sonrakı illərinə təsir edəcək səhvlərə yol verməməyə diqqət etməlidirlər. Münaqişə zamanı partnyorunuzun qəlbini qırmamaq üçün böyük sözlər söyləməmək, tənqid etməmək və aranızda olan hörməti itirməməyə diqqət etməlisiniz. Münaqişələrini həll edə bilən, bir-biri ilə keyfiyyətli vaxt keçirə bilən, flört edə bilən, səydən əl çəkməyən, maddi və cinsi birliyə sahib olan cütlüklərin daha sağlam əlaqələri olur".

Psixoloq Günel Allahverdiyeva: "Hər kəs ailə qurduqda xoşbəxt olmaq istəyir. Xoşbəxt ailə sağlam cəmiyyətin təməlidir. Hər bir fərd ayrılıqda cəmiyyət üzvü olaraq onun inkişaf etməsində və ya əksinə, inkişafının ləngiməsində müəyyən rol oynayır. Lev Tolstoy deyir ki, bütün xoşbəxt ailələr bir-birinə bənzəyir, bədbəxt ailələrin isə hərəsi bir cür bədbəxtdir.

Xoşbəxt evlilik və düzgün münasibət üçün partnyorun doğru insan olub-olmamasına əmin olunmalıdır. Həyatınıza girən biri ilə çətinlik çəkmədən, asanlıqla söhbət edə bilməlisiniz. Onunla vaxt keçirməkdən bezməməli, danışmaqdan zövq almalısınız.

Bəzən müəyyən müddətdən sonra ailələrdə müəyyən problemlər yaranır və bu problemlər qadın və kişinin xoşbəxt olmamasına səbəb olur. Xoşbəxt olmayan evliliklər hal-hazırki dövrdə daha çoxdur. Cütlüklərin evləndikdən sonra xoşbəxt olmaması həm onların həyat keyfiyyətlərinin aşağı düşməsinə səbəb olur, həm də uşaqların gələcəkdə müxtəlif psixoloji problemlərə sahib olmasına gətirib çıxarır.

Digər bir problem isə evlilikdən sonra tərəflərin həyat tərzlərini böyük ölçüdə dəyişdirməsi, fərqli xarakterlərə sahib olmaları və ya bir-birinə laqeydlik göstərmələri ailədə münasibətlərin pozulmasına səbəb olur.

Buna görədə hər bir şəxs ailə qurarkən evliliklə bağlı özünüzə verməli olduğu müəyyən suallar var. Bu suallara aiddir:

* Özümü tanıyırammı?



* Evlilik üçün özümü hazır hiss edirəmmi?
* Bu insan evlilik üçün yetkin biridirmi?
* Xarakterimizdə uyğunluq varmı?
* Qarşılıqlı sevgi, hörmət və sədaqəti təmin edə biləcəyikmi?
* Bu insan mənim yaxşı və pis günümdə yanımda olacaqmı?
* Həyata fərqli tərəfdən baxıb ortaq bir məxrəcə gələ bilərikmi?

Xoşbəxt olamağın ən gözəl yolu sahib olduğun ailənin dəyərini bilmək, onu hər şeydən qorumaqdır".

*Ayşən Vəli*



İLHAM

# Görən Kardaşyan yaxşıdır, yoxsa erməni keşişi?

Çox əvvəl, yeni 44 günlük Vətən Müharibəsindən öncə yazmışdım ki, əgər ABŞ-dakı erməni zadın zadı Kardaşyan və Koçaryan, eləcə də Sarkisyan əlimə düşsələr onları mələdəcəm. Hətta imkanım olsa və fürsət yaransa onları ballistik raketlərin lüləsinə yerləşdirib atacam hara gəldi, o yerlərə ki, oradan geri dönüş mümkünsüzdür. İndi sevincliyəm, üzümdə gülür, tez-tez də qımışıram. Ona görə ki, uca Allahımız arzularımızın qəbir evinə aparılmasını rəva bilmədi. Haqqı nahaqqa qurban verməyən, ən böyük adil və ədalətli hakim olan Allah Azərbaycan xalqının dualarını, yalvarışlarını qəbul etdi və işğal altında olan torpaqlarımız azad olundu.

Artıq müharibə yoxdur, işğalçı erməni ordusu da məhv edilib. İndi quruculuğun, abadlığın aparıldığı, rahat nəfəs alan sakit, sabit Qarabağımız var. İndi həm də fərdlərin, o cümlədən mənim də yağı düşmənlə bağlı xəyallarımın həyata keçirilməsi məqamıdır. Hərdən düşünürəm ki erməni zadın zadı olan Kardaşyanla məsələni çürütmək o qədər də çətin deyil. Birincisi ona görə ki, artıq ona himayədarlıq edən Sarkisyan hakimiyyətdən zibil qutusuna atılıb. İkincisi erməni diasporası tülki kimi qınına çəkilib. Üçüncüsü isə Kardaşyan pulsuz, parası qalıb. O dərəcə də kasıblayıb ki, Cavanşir xalam oğlu demişkən itə də bir sümük borcludur. Yəni onun zəif nöqtəsindən istifadə etmək çətin deyil. Əminəm ki, üçüncü səbəb barədə bilgi alan bəzi xatakar Azərbaycan oğullarının üzünə təbəssüm gələcək, qımışmağa, ABŞ-a getmək üçün yollar aramağa başlayacaqlar. Lakin tövsiyyə edərdim ki tarakana baş qoşmağa dəyməz. Sadəcə internet üzərindən ona bir ismarıc göndərmək və "etiraz etmirəm" cavabını alınca barmağa dolamaq, məsxərə obyektinə çevirmək, bununla da mənən və ruhən sındırmaq kifayətdir.

O ki qaldı Kaçaryana, Sarkisyana və Ohanyana, onlarla söhbətimizin qısa olacağı şübhəsizdir. Çünki onlar azərbaycanlı uşaqların qatili, qocalara rəhm etməyən, qadınlara hörmət göstərməyən vəhşi terrorçulardır. Terrorçularla necə davranıldığını Azərbaycanın igid əsgər və zabitləri 44 günlük Vətən Müharibəsində və 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyatları zamanı nümayiş etdirib. Xüsusi amansızlıqları ilə seçilən və tanınan Arayik, Vardanyan, Saakyan, Qukasyan və digərləri isə həbs edilərək istintaq orqanlarına təhvil veriliblər. Yaxın günlər də isə onların məhkəmələri keçiriləcək və layiq olduqları cəzanı alacaqlar. Kaçaryanı, Sarkisyanı və Ohanyanı isə həbs etməyə ehtiyac duyulmayacaq. Onların alınlarına güllə ilə vurulacaq və qara torbada qara torpaqda çürüdüləcəklər. Hələlik isə Kaçaryan, Sarkisyan və Ohanyan revanşist mövqe sərgiləyirlər. Arada bir qurdun qorxusundan sahibinə sığınıb, quyruğunu qıçına sıxmaqla hürən tula kimi Azərbaycana qarşı hədyanlar səsləndirirlər. Hətta keşişləri, yepiskopları, kilsə də şam yandıran və moizə deyənləri də ətraflarına yığmaqla rəhbərlik etdikləri terror təşkilatlarının sıralarını genişləndirməyə çalışırlar.

Ancaq keşişlərlə nəyəsə nail olmaq mümkün deyil. Sadəcə bu cür hal özlərini yaxınlaşmaqda olan cəza tədbirindən qorumaq üçün göstərilən son cəhdlərdir. Ermənistanın baş naziri Nikol Paşinyan keçirdiyi mətbuat konfransında Erməni Apostol kilsəsinin Tavuş yeparxiyasının yepiskopu Baqrat Qalstanyanın rəhbərliyi ilə təşkil olunan "Tavuş hərəkatı"nın Robert Koçaryan tərəfindən idarə edildiyini bildirdi və qeyd etdi ki, qanunsuz əməllərin qarşısının alınması üçün ciddi cəza tədbirləri görüləcək. Artıq cəzadan qorxuya düşən Koçaryan və Sarkisyan aradan çıxıblar. Onların hər ikisinin Almaniyada olduğu bildirilir. Bu isə onu təsdiq edir ki, hər iki cani Ermənistanda yaşamağın onlar üçün təhlükəli olduğunu anlayırlar.

Ancaq Almaniya Koçaryan və Sarkisyan üçün ölüm düşərgəsi ola bilər. Daha doğrusu bu vəhşi terrorçular Almaniyadan qaça bilməyəcəklər. Onlar ya İnterpolun xətti ilə həbs edilərək Azərbaycanın hüquq mühafizə orqanlarına təhvil veriləcəklər, ya da onlara qarşı ABŞ-ın Bin Ladenlə davrandığı kimi davranış nümayiş etdiriləcək. Yəni onların başları üzərində demokul qılıncı fırlanır, hər an bu qılınc onların boş qazanı xatırladan başlarını bədənlərindən ayıra bilər.

# Ekoloji siyasətdə Heydər Əliyev imzası

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə Ekologiya və ətraf mühitin mühafizəsi istiqaməti çərçivəsində hazırlanıb*



**Ölkəmizin elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyevin dəst-xətti, izi hiss olunmasın. Ekoloji istiqamət də bu sahələrdən biridir. Azərbaycana rəhbərlik etdiyi ilk illərdən etibarən o, Bakıda və ölkənin bütün bölgələrində təbiəti mühavizə istiqamətində çox ilklərə imza atdı, çox yeniliyin əsasını qoydu. Heydər Əliyev Bakının yaşıllaşdırılmasının ən vacib dövlət siyasəti olduğunu çıxışlarında dəfələrlə qeyd edib.**



”1970-ci ildə mən ilk dəfə Bakıda yaşıllıq işləri aparılması təklifini irəli sürdüm, böyük bir proqram hazırladıq və Bakını sürətlə, ilbəil yaşıllaşdırmağa başladıq. Doğrudur, mən Azərbaycandan gedəndən sonra və xüsusən 1987-1988-ci illərdə çox nadan adamların respublikamıza rəhbərlik etdikləri dövrdə, bundan sonra Azərbaycanda, o cümlədən Bakıda hərc-mərclik, özbaşınalıq hökm sürdüyü zamanda cinayətkar adamların, dəstələrin böyük vəzifələr tutduğu, hakimiyyətə gəldiyi dövrdə Azərbaycan, Bakı üçün əziz olan bu sahə nəinki unuduldu, hətta, bizim böyük əziyyətlərlə əkdiyimiz, becərdiyimiz, boya-başa gətirdiyimiz ağacları kəsməyə başladılar”.

Heydər Əliyevin bu istiqamətdə apardığı siyasət nəticəsində 1989-1997-ci illər ərzində respublikamızda 45 min hektar sahədə meşə bərpa işləri aparılıb. Həmçinin 1969-1982-ci illərdə Azərbaycan ərazisində eroziyaya məruz qalmış və kənd təsərrüfatına yararlılıqdan çıxmış ekoloji yararsız torpaqlarda, Xəzərin sahilindəki qumluqlarda 68,1 min hektar sahədə qoruyucu meşə zolaqları salındı. 1990-1997-ci illərdə isə 4800 hektar sahədə eyni işlər həyata keçirildi.

Ölkə rəhbəri, 1971-1975-ci illərdə Azərbaycanda 30 min hektar suvarılan torpağın istismara verilməsini, 150 min hektar sahədə hamarlama işlərinin aparılmasısı, 200 min hektar sahədə yeni suvarma şəbəkələrinin qurulmasını, su təchizatının yaxşılaşdırılmasısı, 400 min hektar sahədə otaqlara su çıxarılmasını, Kür-Araz düzənliyində 280 min hektar sahədə şoran torpaqların yuyulmasını qarşıya bir vəzifə kimi qoymuşdu. Eləcə də bu 4 il müddətdə 270 min hektar yeni suvarılan ərazinin istifadəyə verilməsi nəticəsində ümumi suvarılan sahənin 1,450 milyon hektara çatması, 550 min hektar sahədə kompleks meliorasiya sistemlərinin yaradılması ölkənin ekoloji siyasətinin nə qədər uğurlu aparılmasını təsdiq edir.

Ümummilli Lider Heydər Əliyevin 2001-ci il 23 may tarixli Fərmanı ilə ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadənin ayrı-ayrı istiqamətləri ilə məşğul olan və fəaliyyətlərində bir-birini təkrarlayan Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi, Dövlət Hidrometeorologiya Komitəsi və ”Azərmeşə” İstehsalat Birliyi ləğv edildi və onların bazasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılıb.

Eyni zamanda Heydər Əliyevin 2001-ci il 18 sentyabr tarixli Fərmanı ilə ”Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə” təsdiq edilib. Əsasnaməyə görə Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan hissəsində ətraf mühitin qorunması, təbiətdən istifadənin təşkili, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü təbii sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması sahəsində dövlət siyasətini həyata keçirilməsi bu nazirliyə tapşırılıb.



Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə respublikada həyata keçirilən irimiqyaslı təbiəti mühafizə tədbirlərinin təşəbbüskarı və təşkilatçısı olub. Həmin illər ekologiya, təbiətin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadəyə dair 8 qanun və Azərbaycan KP MK-nın, Nazirlər Sovetinin 32 qərarı vardı. O dövrdə Heydər Əliyev Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi sahəsində məqsədyönlü siyasət yürütmək üçün bütün gücünü səfərbər etmişdi.

İri su hövzələrinin yaradılması, torpaqların şoranlaşmadan təmizlənməsi üçün drenaj sistemlərinin tikilməsi, geniş meşə zolaqlarının salınması, ölkəmizin flora və faunasının qorunub saxlanılması və inkişaf etdirilməsi məqsədilə respublikamızda 1969-cu ildə Şirvan, 1978-ci ildə Ağ göl, 1981-ci ildə İsmayıllı, 1974-cü ildə Bəsitçay və s. dövlət qoruqları yaradıldı. Həmçinin bütün Abşeronda və Gəncədə iri yaşıllıq massivlərinin salınması, şəhər və rayonlarımızda nəhəng sutəmizləyici qurğuların, dəryaların inşa edilməsi məhz Heydər Əliyevin ekoloji tarazlığın qorunması, ölkənin yaşıllaşdırılması istiqamətində illərdir çəkdiyi zəhmətinin bəhrəsi idi. Bundan əlavə, Şirvan, Pirqulu, eləcə də Talış dağlarının yuxarı zonalarında, İsmayıllı meşələrində, Laçın, Qubadlı rayonları ərazisində yaradılmış dövlət qoruqları, Ağstafa, Tərtərçay dəryaçaları, Araz su qovşağı, Kür su kəməri, Arpaçay su anbarı da ekoloji nəhənglərdən idi.

”Bir ağacı əkib, becərmək, onu böyütmək bir övladı böyütməyə bərabərdir. Mən bunu bilirəm, öz həyatımda, təcrübəmdə yaşamışam. Çünki Bakıda ağac əkmək çətindir. Yadınıza salın, vaxt vardı, Bakıda ağac yox idi, əsrin əvvəlində Bakıya gələn Maksim Qorkinin sazlərini yadınıza salın, Mayakovskinin sözlərini xatırlayın, 20-ci illərdə Bakıya gəldiyini, cəmi 2-3 ağac gördüyünü deyirdi.Ancaq biz Bakını yaşıllaşdırdıq. Küçələri, meydanları yaşıllaşdırdıq. Bakıxanov qəsəbəsində, Badamdar qəsəbəsində, Xalqlar Dostluğundakı o ağacları biz nə qədər əziyyətlə əkdik, böyütdük. Məşhur şənbə iməcliklərimizin hesabına. İnsanlar o ağacları əkirdi, hər həftə suvarırdılar. Bu Bakı üçün idi, xalq üçün idi, təbiət üçün idi.”

Bu sözlər ümummilli liderin niqtindəndir. O Bakıda salınan yaşıllığın hər metrəsi üçün insanların əziyyətinin olduğunu, bu işdə hamımızın birgə əmək sərf etməyimizin vacibliyini vurğulayırdı: ”Bizim bu birgə əməyimizi məhv edənlər, o ağacları kəsənlər, təbiətə zərər verənlər vətənə xainlik edirlər. Kəsilən ağacların yerində yenisini əkmək görün nə qədər vaxt alacaq. O ağacları kəsənlər hesab edin ki, mənim balalarımın başını kəsiblər. O ağacları kəsənlər gərək haqq-ədalət məhkəməsi qarşısında cavab versinlər. O ağacları kəsib yerində tikilən dükanların hamısını dağıtmaq lazımdır”.

Ağaclar, meşələr dünyanın ağciyərləridir, onlar insanlara, bəşəriyyətə zərər verə biləcək təhlükələri udur. Ağaclar təbiətdəki, atmosferdəki zərərli maddələri təmizləyir, oksigenimizi süngərdən keçirir. Onlar həm də su mənbələridir, ağacların köklərindən süzülən su yeraltı su anbarlarına toplanır. Bu da içməli su kimi dünya əhalisi üçün, eləcə də içməli su ehtiyatı hər gün azalan Azərbaycan üçün əhəmiyyətli rezerv deməkdir. Çünki normal böyüklükdə olan hər bir ağac atmosferə ildə 150 ton su göndərir. Bu da yağış təminatında əhəmiyyətli pay deməkdir.

Torpaq sürüşmələrinin və daşqınların baş verməsində də ağacların məhv edilməsinin payı var. Ağaclar kökləri sayəsində torpağın çoxlu su udmasına mane olur, beləcə sürüşmənin qarşısını ala bilir. Ağaclar olmasa, sürüşmə və sel nəticəsində maddi və mənəvi itkilər daha çox baş verər. Əgər ağaclar olmasaydı, torpağın temperaturu yüksələrdi. Düşünək, Bakı niyə gündən-günə yaşanılmayacaq qədər isti bir şəhərə çevrilir?!



**Lalə Mehralı**

SƏS

10 may
2024-cü il

# “Çox uşaq ağır məsuliyyət deməkdir”




MÜNASİBƏT

**“Bütün ölkələrdə bu və ya digər şəkildə çoxuşaqlılığın dəstəklənməsi həyata keçirilir”. Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan filosofu, pedaqoq, fəlsəfə üzrə fəlsəfə doktoru, sosioloq Mail Yaqub deyib.**

O bildirib ki, Azərbaycan da biruşaqlı, ikiuşaqlı ailə modelinə keçib: ”Buraya uşaq pulunun verilməməsinin təsiri, şübhəsiz ki, var. El arasında ”uşaqpulu” adlanan ödəniş - beynəlxalq təcrübəyə əsasən, hər bir uşağa ailəsinin gəlirinə əks mütənasib pul yardımıdır. Bəzi demoqrafik artımın olmadığı ölkələrdə ailədə uşaq sayı artdıqca, uşaqlar üçün müavinətlərin məbləği artırılır. Ancaq bəzi digər ölkələrdə, məsələn, Böyük Britaniyada uşaqların sayı 2-dən çox olduğu zaman, sosial yardım alan işsiz ailələrə uşaqlar üçün ödənilən müavinətlərin sayı artmır, dövlət yalnız iki uşaq üçün müavinət ayırır. Ailədə doğulan ilk yeni körpəyə görə isə hökumət, digər sosial müavinətlər də alan, işsiz valideynlərə birdəfəlik 500 funt sterlinq (təxminən 1070 manat) məbləğində ödəniş edir.

Uşaq pulu verilsə, bu, ailədə uşaq artımına birbaşa müsbət töhfə verəcək. Lakin, təkcə bu amil yetərli deyil. Yəni, Azərbaycanda ailələrdə uşaqların az olması təkcə uşaq pulunun verilməməsilə əlaqəli deyil. Ən vacib məsələ dünyada gedən ümumi tendensiyadır. Azuşaqlı ailə modeli bütün dünyada dəbdədir. Çünki insanlar daha rahat həyat istəyirlər. Çox uşaq ağır məsuliyyət deməkdir. İnsanlar bu məsuliyyətdən qaçırlar. Burada mənəvi dəyərlərin rolu böyükdür. Yəni, çoxuşaqlı ailə istəyiriksə, mütləq bunu bir mənəvi dəyər kimi təbliğ etməliyik”.

***Söylü Ağazadə***

# “Səs” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Bu futbolçu mövsümün sonunda ”Real”dan ayrılacaq

“Real Madrid” - ”Bavariya” görüşünün qəhrəmanına çevrilən Xoselu mövsümün sonunda klubdan ayrılacaq. SİA xəbər verir ki, ”Real Madrid” rəsmilərinin bu qərarı daha öncədən verdikləri bəlli olub. 2022-ci ildən ”Real Madrid”də çıxış edən ispaniyalı futbolçunun getməsinin səbəbi isə Kilian Mbappe və gənc futbolçu Endrikin komandaya qatılmaları olub.




Qeyd edək ki, Xoselu ”Bavariya” görüşün son dəqiqələrində vurduğu iki qolla ”Real Madrid”i finala daşıyıb.

# Meyvələrin tez yetişməsi üçün hansı üsullardan istifadə olunur?

*AYDINLIQ GƏTİRİLDİ*



**“Hazırda satışda olan çiyələk yaz-yay meyvəsidir, yazın əvvəlində yetişdirilməyə başlayır, yaz boyunca və yayın əvvəlində isə tam mövsümüdür”. Bu sözləri SİA-ya açıqlamasında qida mühəndisi Fərid Səfərov deyib.**

Qida mühəndisi satışda olan çiyələyin insan sağlamlığına vurduğu mənfi cəhətlərindən də bəhs edib: ”İndi satışda gördüyümüz çiyələk bizə iki fərqli formada mənfi təsir edir: 1) sağlamlığımıza; 2) cibimizə

Tez yetişməsi və uzun müddət saxlanması üçün böyümə hormonlarından və qatqılardan istifadə olunur, bu sağlamlığımıza birbaşa ziyanlıdır. Mövsümü olmadığı üçün də çox bahadır”.

Fərid Səfərov müxtəlif yaş kateqoriyalarından olan insanlara çiyələyin doğru şəkildə qəbul olunması barədə vətəndaşlara məsləhətlər verib: ”Bütün meyvə və tərəvəzlərdə olduğu kimi, çiyələyin də gündəlik qəbul norması var. 100 qram çiyələyin kalorisi 32-dir, həddindən artıq istehlak edildikdə bəzi allergik reaksiyalara səbəb ola bilər. Tərkibində yüksək miqdarda kalium və fosfor olduğu üçün böyrək çatışmazlığı olan insanların mütəxəssis həkimə müraciət edərək istehlak etmələri tövsiyə olunur. Nəzərə alsaq ki, uşaqların orqanizmi daha həssasdır, normadan artıq qəbulu uşaqlar üçün də zərərli hesab olunur. Sağlamlığınızı və büdcənizi qoruyun! Sağlam qidalanaraq sağlam yaşayın!”

***Ləman Sərraf***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3200**